*Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.*

*Heydər ƏLİYEV*

# DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

25 sentyabr 2020-ci il № 41-44 (9419) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiyməti 50 qəpik

## BU SAYIMIZDA

### Son 5 ay ərzində ümumilikdə 446 vətəndaş gəmi-bərələrlə Bakı Limanından yola salınıb

*COVID-19 pandemiyasının yayılma təhlükəsi səbəbindən sərnişinlər üçün sərhədlərin bağlanmasına görə, Azərbaycanda qalan və bu ölkədə yaşamaq hüququ olan 33 Azərbaycan və 13 Qazaxıstan vətəndaşı Qazaxıstana yola salınıb.*

Səh. 2

### Dinamik Mövqe Saxlama təlimlərinə həsr olunmuş konfransa ASCO-nun Təlim-Tədris Mərkəzinin direktoru da qatılıb



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Təlim-Tədris Mərkəzinin direktoru Emil Manafov Böyük Britaniyanın nüfuzlu "The Nautical Institute" təşkilatının təşkil etdiyi konfransa qatılıb.*

Səh. 3

### "General Əliağa Şıxlinski" gəmisi yüksək keyfiyyətlə təmir edilib

*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) "General Əliağa Şıxlinski" gəmisinin təmir işləri "Bibiheybət" Gəmi Təmiri Zavodunda yerinə yetirilib.*

Təmir müddətində pər-sükan qurğuları elektrik mühərrikləri ilə birlikdə, 600 tonluq kran qolu (strela) demontaj olunaraq çıxarılıb və əsaslı təmirdən sonra yerinə quraşdırılıb.

Səh. 4

### Dənizçilər üçün təkmilləşdirmə və ixtisasartırma kursları keçirilir

*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) strukturuna daxil olan Xəzər Dəniz Neft Donanması və Dəniz Nəqliyyatı Donanmasının əməkdaşları üçün Azərbaycan Dövlət Dəniz Akademiyasında təkmilləşdirmə və ixtisasartırma kursları keçirilir.*

Səh. 5

### ASCO-nun gəmiləri mütəmadi dezinfeksiya edilir

*Nazirlər Kabinetinin "Azərbaycanda yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair fəaliyyət planı"nın icrasını təmin etmək məqsədi ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) profilaktik tədbirləri davam etdirir.*

Səh. 7

### "Səbail" heyətini yeni futbolçularla gücləndirir

*Klubun rəsmi saytının verdiyi məlumata görə, paytaxt təmsilçisi "Sabah"ın müdafiəçisi Arsen Ağcabəyovu 2020-2021-ci il mövsümünün sonunadək icarəyə götürüb.*

Səh. 8

# "Əsrin müqaviləsi" respublikamızın salnaməsinə yeni neft strategiyasının şanlı səhifəsi kimi yazılıb

***"Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında" Dövlət Neft Şirkəti (SOCAR) ilə dünyanın tanınmış neft şirkətləri arasında müqavilə imzalanmasından 26 il ötür. Ümummilli lider Heydər Əliyevin 2001-ci il 16 avqust tarixli Sərəncamına əsasən, hər il sentyabrın 20-si Azərbaycanda "Neftçilər Günü" peşə bayramı kimi qeyd olunur.***

#### Azərbaycanın yeni neft strategiyasının uğurlarının başlanğıcı

Təxminən 400 səhifə həcmində və 4 dildə tərtib olunmuş müqavilə öz tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını alıb. Müqavilədə 7 ölkənin 11 ən məşhur neft şirkəti iştirak edib. Bununla da, müstəqil dövlətimizin neft strategiyası və doktrinasının əsası qoyuldu. Bu qlobal layihə Azərbaycanın suveren dövlət kimi öz təbii sərvətlərinə sahib çıxmaq, milli mənafelərini, iqtisadi və strateji maraqlarını müdafiə etmək əzmini bütün dünyaya göstərdi, dövlət müstəqilliyinin mühüm təminatına çevrildi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış "Əsrin müqaviləsi" respublikamızın salnaməsinə yeni neft strategiyasının şanlı səhifəsi kimi yazılıb. Bu müqavilə həm karbohidrogen ehtiyatlarının miqdarına, həm də qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxildir.

Ötən 26 ildə Azərbaycan neft sənayesi hansı inkişaf yolu keçib, nə kimi uğurlara imza atılıb? Gəlin tarixə qısaca da olsa, nəzər yetirək.

1997-ci il noyabrın 7-də "Əsrin müqaviləsi" çərçivəsində "Çıraq" platformasından ilkin neft alınıb. Noyabrın 12-də bu münasibətlə platformada ulu öndər Heydər Əliyevin, layihənin əməliyyatçısı olan BP şirkəti və tərəfdaşlarının nümayəndələrinin, xarici ölkələrdən gəlmiş qonaqların iştirakı ilə təntənəli mərasim keçirilib. Bu, Azərbaycanın yeni neft strategiyasının uğurlarının başlanğıcı idi. Həmin hadisə ilə Azərbaycanın neft sənayesinin əlaqədar olduğu istehsal obyektlərinin beynəlxalq standartlara uyğun qurulmasının təməli qoyulub.

"Əsrin müqaviləsi"ndən sonra xarici şirkətlər ilə daha 34 saziş imzalanıb. Bununla yanaşı, "Əsrin müqaviləsi" respublikada neft hasilatının böyük həcmdə artmasına səbəb olub. Neft hasilatı Azərbaycanın tarixində ən aşağı səviyyədən – 1997-ci ildəki 9 milyon tondan 2010-cu ildə 51 milyon tona çatıb. Başqa sözlə, hasilat 5,6 dəfə artıb.

1996-cı ilin yanvarında Azərbaycan neftinin Bakı-Novorossiysk marşrutu ilə nəql olunması haqqında Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında hökumətlərarası saziş imzalanıb. 1997-ci ilin oktyabrında isə həmin xətt istifadəyə verilib. 1998-ci ildə AÇG nefti fəaliyyəti bərpa edilmiş Bakı-Novorossiysk kəməri ilə Qara dənizə ixrac edilməyə başlayıb.

"Əsrin müqaviləsi" çərçivəsində hasil ediləcək böyük neft həcmləri ilə müqayisədə bu kəmərin ötürücülük qabiliyyəti məhdud olduğundan ixrac boru kəmərlərinin çoxvariantlılığının zəruriliyi məsələsi ortaya çıxdı və alternativ variantlar üzərində ciddi iş aparılmağa başlanıldı. 1997-ci ildə neftin Qara dənizə çıxarılması üçün Bakı-Supsa marşrutu ilə nəqli haqqında Azərbaycan və Gürcüstan arasında saziş imzalandı. 1999-cu ilin aprelində Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki Supsa ixrac terminalı istismara verildi.

Lakin bu da kifayət etmirdi. Bakı-Supsa və Bakı-Novorossiysk boru kəmərləri Azərbaycanın getdikcə artan iri neft həcmlərini dünya bazarına ixrac etmək iqtidarında deyildi. Məhz buna görə də əsas ixrac neft boru kəmərinin qısa zamanda inşası zərurəti yarandı. Belə olan təqdirdə ulu öndər Heydər Əliyev Bakı–Tbilisi–Ceyhan (BTC) əsas ixrac neft boru kəməri ideyasını gündəmə gətirdi. Respublikamızın həm daxildəki, həm də xaricdəki bədxahları müxtəlif bəhanələr gətirərək beynəlxalq ictimai rəydə guya Azərbaycanın gələcəkdə bu kəmərlə ixrac etmək üçün kifayət qədər nefti olmayacağı barədə fikir yaratmağa çalışır, bu ideyanı utopiya hesab edirdilər. Lakin zaman ulu öndər Heydər Əliyevin bu konsepsiyasının tamamilə real, həm də iqtisadi cəhətdən səmərəli olduğunu göstərdi.

2002-ci ildə ümummilli lider Heydər Əliyevin şəxsən iştirakı ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməli qoyuldu. "Əsrin müqaviləsi" ulu öndər Heydər Əliyevin birinci şah əsəri idisə, Bakı-Tbilisi-Ceyhan neft boru kəməri dahi şəxsiyyətin ikinci şah əsəri oldu. 2006-cı ilin mayında Azərbaycan nefti BTC kəməri vasitəsilə Ceyhan limanına çatdırıldı. Hazırda bu kəmərin əhəmiyyəti bütün dünyada birmənalı etiraf olunur.

Bu gün Bakı–Tbilisi–Ceyhan əsas ixrac neft boru kəməri, eyni zamanda, ümumilikdə beynəlxalq enerji təhlükəsizliyi sistemi baxımından, eləcə də neft ixracı sahəsində ölkəmizlə uğurlu tərəfdaşlıq edən ölkələr, xüsusilə Mərkəzi Asiya dövlətləri üçün də müstəsna əhəmiyyət kəsb edir.

Kəmərin illik ötürücülük qabiliyyəti 50 milyon tondur ki, bunu da gələcəkdə 60 milyon tona çatdırmaq mümkündür. 1768 kilometr uzunluğa malik BTC boru kəməri 2006-cı ilin iyunundan istismardadır. Hazırda BTC boru kəməri Azərbaycandan əsasən AÇG nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, kəmər vasitəsilə Türkmənistan və Qazaxıstan nefti də nəql olunur. Bu vaxtadək Bakı–Tbilisi–Ceyhan kəməri ilə 3,47 milyard barreldən çox neft nəql olunub və Ceyhan limanında təqribən 4526 tankerə yüklənərək dünya bazarına göndərilib. Cari ilin yanvar-avqust aylarında bu kəmər vasitəsilə 19 milyon 77,1 min ton neft ötürülüb. Səkkiz ayda BTC ilə 2 milyon 764,7 min ton tranzit nefti də nəql olunub.

*(Davamı 2-ci səhifədə)*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 24 yanvar tarixli 18 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

***Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır: "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsinin və strukturunun təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 24 yanvar tarixli 18 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 1, maddə 67, № 10, maddə 1321; 2016, № 3, maddə 584, № 5, maddə 957, № 8, maddə 1428, № 11, maddə 1978; 2018, № 7 (II kitab), maddə 1620; 2019, № 2, maddə***

***346, № 4, maddə 756; 2020, № 5, maddə 653) aşağıdakı dəyişikliklər edilsin:***

1. Aşağıdakı məzmunda 3-cü hissə əlavə edilsin: "3. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.".

2. Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə – "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin Nizamnaməsi"nin "Qeyd"i çıxarılsın. 3. Həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə – "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin strukturu"nun "II. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin törəmə hüquqi şəxsləri" bölməsinin 4-cü hissəsində "ACSC logistics" sözləri "ASCO Logistics" sözləri ilə əvəz edilsin və həmin bölməyə aşağıdakı məzmunda 5-4-cü və 5-5-ci hissələr əlavə edilsin: "5-4. "ASCO Nəqliyyat" Məhdud Məsuliyyətli Cəmiyyəti; 5-5. "ASCO Mühafizə" Məhdud Məsuliyyətli Cəmiyyəti.".

***Əli Əsədov,***
***Azərbaycan Respublikasının Baş Naziri***
*Bakı şəhəri, 15 sentyabr 2020-ci il*
*№ 340*

# “Əsrin müqaviləsi” respublikamızın salnaməsinə yeni neft strategiyasının şanlı səhifəsi kimi yazılıb

*(Əvvəli 1-ci səhifədə)*

Cari il sentyabrın 1-dək isə dünya bazarlarına 579 milyon ton Azərbaycan nefti çıxarılıb. Bunun da 162 milyon tonu Bakı-Supsa, Bakı-Novorossiysk və dəmir yolu ilə, 417 milyon tonu Bakı-Tbilisi-Ceyhan boru kəməri ilə nəql olunub.

Yarım ildə BTC üzrə əməliyyat xərclərinə təqribən 48 milyon dollar, əsaslı xərclərə isə 14 milyon dollar sərf edilib. “BTC Co.”nun səhmdarları belədir: BP 30,1 faiz, “AzBTC” 25 faiz, MOL 8,9 faiz (bu il aprelin 16-dan “Chevron” şirkətini əvəz edib), “Equinor” 8,71 faiz, “TPAO” 6,53 faiz, “Eni” 5 faiz, “Total” 5 faiz, “Itochu” 3,4 faiz, “Inpex” 2,5 faiz, “ExxonMobil” 2,5 faiz və “ONGC (BTC) Limited” 2,36 faiz.

Yeni neft strategiyasının gerçəkləşməsi ilə respublikamızın neft ehtiyatlarının istismarına geniş məbləğdə xarici investisiyalar cəlb edildi. Təkcə onu demək kifayətdir ki, Dövlət Neft Şirkəti 15 ölkənin 25 şirkəti ilə imzalanmış hasilatın pay bölgüsü sazişində Azərbaycan dövlətini uğurla təmsil edir. HPBS-lər çərçivəsində 1995-2013-cü illərdə Azərbaycanın neft-qaz sektoruna təqribən 51,6 milyard ABŞ dolları məbləğində sərmayə qoyulub. İndiyədək isə “Azəri-Çıraq-Günəşli” layihəsi hesabına 145,8 milyard dollar gəlir əldə olunub.

SOCAR bu gün dünya standartlarına cavab verən, lazımi iqtisadi və texniki imkanları olan, Azərbaycandan kənarda da böyük layihələr həyata keçirən müasir bir şirkətdir. Hazırda Azərbaycandan neft və neft məhsulları dünyanın 30 ölkəsinə, qaz isə Gürcüstana, Türkiyəyə, Rusiyaya, İrana və Yunanıstana nəql edilir.

### “Yeni Əsrin müqaviləsi” - maraqların balansı

2017-ci il sentyabrın 14-də isə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakıda Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimi keçirildi. Sazişi Azərbaycan Hökumətinin, SOCAR-ın, BP, “Chevron”, “Inpex”, “Statoil”, “ExxonMobil”, “TP”, “Itochu” və “ONGC Videsh” şirkətlərinin rəsmiləri imzaladılar.

14 sentyabr ölkəmizin həyatında çox əlamətdar və tarixi bir gün oldu, “Azəri-Çıraq-Günəşli” nəhəng neft yatağının işlənilməsində yeni dövrü başladı. Yeni Sazişin ölkəmiz üçün çox böyük əhəmiyyəti var. Çünki “Azəri-Çıraq-Günəşli” neft yatağının işlənilməsi 2050-ci ilədək uzadıldı. Bu Saziş Azərbaycan üçün daha da əlverişlidir, baxmayaraq ki, 1994-cü ildə imzalanmış saziş də ölkəmizin maraqlarını tam təmin edirdi. Bu dəfə isə daha da yaxşı şərtlərlə Saziş imzalandı. Bu Sazişin yeni “Əsrin müqaviləsi” adlandırılması da təsadüfi deyil. Azərbaycanın gələcək inkişafı, ölkənin maliyyə imkanlarının genişləndirilməsi üçün bu kontraktın çox böyük əhəmiyyəti var.

Sazişin bir hissəsi olaraq SOCAR-ın AÇG-dəki iştirak payı 11,65 faizdən 25 faizə qaldırıldı və beynəlxalq tərəfdaş şirkətlər Azərbaycan Respublikası Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəyəcək. Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi isə 75 faiz təşkil edəcək. Beləliklə, ölkənin ümumi mənfəət göstəricisi 89,1 faiz təşkil edəcək ki, bu da gələcəkdə yeni strateji layihələrə başlamağa zəmin yaradacaq. 2050-ci ilədək AÇG-yə 40 milyard dollardan çox sərmayə qoyulması potensialı var.

Bu sazişin ardınca, SOCAR və tərəfdaşları arasında AÇG müqavilə ərazisi üçün əlavə bir hasilat platformasının qiymətləndirilməsi məqsədilə mühəndis-layihə işlərinin irəli aparılması haqqında razılaşma əldə olunub. Hazırda AÇG-də tərəfdaşların iştirak payları bu nisbətdədir: BP 30,37 faiz, “AzAÇG” (SOCAR) 25 faiz, MOL 9,57 faiz (bu il aprelin 16-dan “Chevron” şirkətini əvəz edib), “Inpex” 9,31 faiz, “Equinor” 7,27 faiz, “ExxonMobil” 6,79 faiz, “TPAO” 5,73 faiz, “Itochu” 3,65 faiz və “ONGC Videsh Limited” (OVL) 2,31 faiz.

Ötən 26 ildə sazişin icrası uğurla reallaşdırıldı. AÇG-də böyük ehtiyatlar mövcuddur və burada hələ görüləcək çox iş var. Bu vaxtadək AÇG-dən hasil edilən 3,8 milyard barrel neft dünya bazarına əsasən Bakı-Tbilisi-Ceyhan və Qərb Marşrutu İxrac Boru Kəməri vasitəsilə daşınıb. 1994-cü ildə kontrakt imzalananda təxmin edilən neft ehtiyatları 511 milyon ton müəyyən olunmuşdu. Bu gün isə “Azəri-Çıraq-Günəşli”də hasil edilməmiş təxminən 500 milyon ton neft ehtiyatı var. Lakin bu hələ son rəqəm deyil. Yataqların ehtiyatının atması ehtimalı var və yeni Sazişin icrası müddətində bu rəqəm daha da artacaq.

Cari ilin birinci yarısında AÇG üzrə fəaliyyətlərə təqribən 268 milyon dollar əməliyyat və 947 milyon dollar isə əsaslı məsrəflər xərclənib. Yarım ildə AÇG-dən stabil hasilat təhlükəsiz və etibarlı şəkildə davam edib, ümumi hasilat gündəlik orta hesabla 498 min barrel və ya ümumilikdə təqribən 91 milyon barrel, yəni 12 milyon ton olub. İyunun sonuna AÇG-də ümumilikdə 129 neft hasilat quyusu, 42 su və 7 qaz injektor quyusu istismarda olub. Yanvar-iyun aylarında blokda 8 neft hasilat quyusu qazılıb. Hazırda AÇG-də 8 platforma - 6 hasilat platforması və 2 texnoloji platforma var. Bu platformalardan neft və qaz dünyanın ən iri neft və qaz terminallarından biri olan Səngəçal terminalına nəql olunur.

Birinci yarımildə “BP Azerbaijan” şirkəti “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan SOCAR-a əsasən Səngəçal terminalı, həmçinin də “Neft Daşları”ndakı qurğu vasitəsilə gündəlik orta hesabla 6,9 milyon kubmetr, ümumilikdə isə 1 milyard kubmetr səmt qazı təhvil verib. İstismara verilməndən bu ilin sentyabrına kimi AÇG yataqlarından SOCAR-a 48 milyard kubmetrdən çox səmt qazı verilib.

İndiyədək “Azəri-Çıraq-Günəşli layihəsinə 43 milyard dollardan çox sərmayə qoyulub, bundan sonra da bir o qədər investisiyanın xərclənməsi nəzərdə tutulur.

Artıq 21-ci ildir ki, AÇG layihəsinin iştirakçıları mənfəət neftindən gəlir əldə edirlər. Cari il sentyabrın 1-dək dünya bazarlarında Azərbaycanın payına düşən 305 milyon ton mənfəət nefti satılıb ki, bu da həmin vaxtadək çıxarılmış AÇG neftinin 59 faizini təşkil edir. Mənfəət neftinin həcmi ilbəil artır. Bu ilin 8 ayında “Azəri-Çıraq-Günəşli” yataqlarından hasil edilmiş 16 milyon ton neftin 12 milyon tonu, yəni 75 faizi Azərbaycanın payına düşən mənfəət nefti olub. Hazırda 26 ildir ki, “Əsrin müqaviləsi” çərçivəsində işlər uğurla davam etdirilir.

Dövlət Neft Fondu 2001-ci ilin əvvəlindən bu il avqustun 1-dək “Azəri-Çıraq-Günəşli” neft-qaz yataqları blokunun işlənməsi layihəsinin reallaşdırılması çərçivəsində ümumilikdə 145 milyard dollardan çox gəlir əldə edib. Bu ilin yanvar-avqust aylarında AÇG layihəsi çərçivəsində Dövlət Neft Fonduna 2 milyard 657 milyon dollar vəsait daxil olub. O cümlədən bu ilin 8 ayında Neft Fondunun “Şahdəniz” yatağı üzrə kondensatın satışından əldə olunan gəlirləri 232 milyon dollar təşkil edib. 2007-ci ildən indiyədək isə bu rəqəm 3 milyard dolları ötüb.

Ötən 3 ildə Neft Fonduna “Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında” SOCAR ilə xarici hasilat şirkətləri arasında imzalanmış yeni sazişə uyğun olaraq 1 milyard dollar həcmində ödənişlər həyata keçirilib.

Azərbaycanda ilk dəfə dünya miqyasında dənizdən neft XX əsrin ortalarında “Neft Daşları”nda çıxarılıb. Bu o deməkdir ki, Azərbaycanın çox böyük və zəngin ənənələri var. 2017-ci ildə isə ölkəmiz üçün 2 milyardıncı ton Azərbaycan neftinin hasil edilməsi ilə əlamətdar oldu. Milyardıncı ton Azərbaycan nefti 1971-ci il martın 28-də çıxarılmışdı. Neftin ilk milyard tonunu hasil etməkdən ötrü Azərbaycan neftçiləri 1 əsrlik yol keçdilər. Lakin neftin ikinci milyard tonunu çıxarmaq üçün isə qəhrəman neftçilərimizə yarım əsrdən də az bir vaxt – 46 il bəs etdi. Kiçik bir ölkədə işlənmənin əvvəlindən iki milyard ton neftin hasil edilməsi həqiqətən də böyük hadisədir.

Bu uğurlar, eyni zamanda, Azərbaycan neftçilərinin fədakar əməyindən, zəngin təcrübəsindən və peşəkarlığından qaynaqlanır. Azərbaycan neftçiləri bütün dövrlərdə öz fədakarlığı, peşəkarlığı ilə cəmiyyətdə çox böyük hörmət qazanıblar. Azərbaycanda neftçi peşəsi çox hörmətli peşədir. Bütün bu uğurların əldə edilməsində Azərbaycan neftçilərinin çox böyük xidməti, zəhməti, payı var. Təsadüfi deyil ki, bunu nəzərə alan ulu öndər Heydər Əliyevin Fərmanına əsasən məhz “Əsrin müqaviləsi”nin imzalandığı gün – 20 sentyabr ölkəmizdə həm də neftçilərin peşə bayramı kimi bayram edilir.

## Son 5 ay ərzində ümumilikdə 446 vətəndaş gəmi-bərələrlə Bakı Limanından yola salınıb

***COVID-19 pandemiyasının yayılma təhlükəsi səbəbindən sərnişinlər üçün sərhədlərin bağlanmasına görə, Azərbaycanda qalan və bu ölkədə yaşamaq hüququ olan 33 Azərbaycan və 13 Qazaxıstan vətəndaşı Qazaxıstana yola salınıb.***

“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” QSC-dən AZƏRTAC-a verilən məlumata görə, “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin “Merkuri 1” gəmi-bərəsi ilə yola salınan vətəndaşlar hər zaman olduğu kimi ilk olaraq Bakı Limanında COVID-19 pandemiyası ilə bağlı virusa qarşı test keçiblər və testin nəticəsi bütün sərnişinlərdə neqativ çıxıb.

Xatırladaq ki, cari il mayın 13-dən Qazaxıstanda karantin dövründə sərhədin keçilməsinə dair yeni qaydalar qüvvəyə minib, bu səbəbdən Kurık limanı ölkə vətəndaşları və ölkədə yaşamaq icazəsi olan xarici vətəndaşların qəbulunu bərpa edib. Son 5 ay ərzində isə ümumilikdə 446 vətəndaş, onlardan 253 Qazaxıstan vətəndaşı və 193 xarici ölkə vətəndaşı olmaqla Bakı Limanından yola salınıb.

## BDU-nun Hüquq fakültəsində “Dəniz və enerji hüququ” sahəsində kadr hazırlığı həyata keçirilir

***Bakı Dövlət Universitetinin (BDU) rektoru Elçin Babayev, Hüquq fakültəsinin dekanı Əmir Əliyev Qazaxıstanın Əl-Fərabi adına Qazax Milli Universitetinin rektorluğunun genişləndirilmiş onlayn iclasında iştirak ediblər.***

BDU-dan bildiriblər ki, Qazax Milli Universitetinin rektoru Qalimkair Mutanov tədbiri giriş sözü ilə açaraq Bakı Dövlət Universiteti ilə birgə kadr hazırlığının, universitetlərarası ikili diplom proqramının əhəmiyyətindən bəhs edib. Bildirilib ki, Azərbaycan və Qazaxıstan dəniz və enerji ölkələri olaraq istər Xəzəryanı, istərsə də beynəlxalq müstəvidə inkişaf etmiş ölkələr sırasındadır. Bu səbəbdən hüquqi sferada birgə kadr hazırlığı və əməkdaşlıq çox müsbət nəticələr verəcək. O, hər iki ölkənin bu istiqamətdə böyük elmi bazasının olduğunu vurğulayıb.

BDU-nun rektoru Elçin Babayev ikili diplom proqramının dost və qardaş ölkələr olan Azərbaycan və Qazaxıstan arasında ilk ikili diplom proqramı olduğuna diqqət çəkib. Müqavilənin hər iki ölkənin ilk və aparıcı təhsil müəssisələri olan Bakı Dövlət Universiteti və Qazax Milli Universiteti tərəfindən imzalanmasını yüksək qiymətləndirib. E.Babayev BDU-nun Hüquq fakültəsində “Dəniz və enerji hüququ” sahəsində elmi məktəbin formalaşdığını, altı ildir ki, bu sahədə ingilis dilində uğurla kadr hazırlığının həyata keçirildiyini bildirib. “Dəniz və enerji hüququ” üzrə tədris və elmi bazanın qurulmasında, o cümlədən müəllim heyətinin formalaşmasında ABŞ-ın Tüleyn Universiteti ilə əməkdaşlığı xüsusi vurğulayan rektor həmin universitetlə birgə beynəlxalq konfranslar təşkil edildiyini deyib. Tüleyn Universitetinin dəstəyi ilə Hüquq fakültəsində “Dəniz və enerji hüququ” Mərkəzi yaradıldığını qeyd edən E.Babayev bu gün də əməkdaşlığın davam etdiyini, yeni layihə və proqramlar haqqında danışıqların aparıldığını bildirib.

İclasın sonunda BDU ilə Qazax Milli Universiteti arasında Hüquqşünaslıq fakültəsində “Dəniz və enerji hüququ” magistratura ixtisaslaşması üzrə ikili diplom proqramı üzrə kadr hazırlığı sahəsində müqavilə imzalanıb.

İclasda, həmçinin Qazax Milli Universitetinin Hüquq fakültəsinin dekanı Daulet Baydeldinov və hər iki ölkənin akkreditə olunmuş səfirləri iştirak ediblər.

## “Birlikdə gördüyümüz işlər bizə güc verir”

***Şamxal Əliyev ASCO-nun gənc və zəhmətkeş dənizçilərindəndir. Məsuliyyəti, nizam-intizamı ilə seçilir. Daim özünü inkişaf etdirir və hədəflərinə gedən yolda yorulmadan çalışır.***



1990-cı ildə Ağdam rayonunda doğulub. 2012-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının “Gəmi sürücülüyü” ixtisasını bitirib. Yeddi il öncə hərbi xidmətdən qayıtdıqdan sonra Azərbaycan Dövlət Xəzər Dəniz Gəmiçiliyində matros kimi işə başlayıb. Hazırda “Ağdam” gəmisində növbə köməkçisi işləyir.

“ADDA-nın məzunu” layihəsində bu gün Şamxal Əliyevi yaxından tanıyacağıq.

**- Əvvəlcə ondan başlayaq, necə oldu ki, dənizçi peşəsini seçmək qərarını verdiniz?**

- Orta məktəbdə təhsil alarkən atamın tövsiyəsi ilə Jül Vernin ”Kapitan Qrantın uşaqları” romanını oxudum. Bu roman məni sanki “ovsunladı”. Əsər boyu dənizçilərin başına gələn sərgüzəştlər, gəmidaxili söhbətlər mənə çox maraqlı gəldi. Daha sonra dənizçiliklə bağlı filmlərə maraq saldım. Beləcə tədricən bu peşəyə marağım artdı və gələcəkdə dənizçi olmaq qərarı verdim.

**- Bəs, heç peşman oldunuzmu?**

- 2013-cü ildən Dəniz Nəqliyyatı Donanmasında çalışıram. Öncə “Merkuri 1” və “Ağdam” gəmilərində matros işlədim. Daha sonra vəzifə artımı üçün müvafiq imtahanlarımız oldu. 2014-cü ilin noyabrından kapitanın 3-cü köməkçisi kimi “Akademik Həsən Əliyev”, “Akademik Topçubaşov”, “Qarabağ” gəmilərində, 2016-cı ildən isə ASCO-nun xarici sularda üzən “Teymur Əhmədov” və “Mahmud Rəhimov” gəmilərində çalışdım. Daha sonralar kapitanın növbə köməkçisi kimi “Mahmud Rəhimov”, “Laçın” və “Ağdam” gəmilərində işləmişəm. Hazırda “Ağdam” gəmisində növbə köməkçisi vəzifəsindəyəm. Bir dəfə də olsun peşman olmadım. İstər matros, istərsə də növbə köməkçisi olduğum vaxtlarda işimi sevə-sevə yerinə yetirdim. Bundan sonra da belə olacaq.

**- Hansı tip gəmidə işləmək sizin üçün daha maraqlı və asandır?**

- Akademiyada təhsil aldığım 4 il ərzində üzmə təcrübəsi zamanı gəmi-bərələrdə olmuşam. Məhz, bu səbəbdən ilk dəfə matros kimi işə başlayanda da gəmi-bərələrə üstünlük verdim. Düzdür, indiyədək quru yük və tanker gəmilərində də çalışmışam, ancaq mənə görə gəmi-bərələr daha maraqlıdır.

**- ASCO-nun Xəzərdənkənar sularda üzən gəmilərində də işləmisiniz. Elə buna əsaslanıb soruşmaq istəyirəm, Xəzər dənizi, yoxsa xarici sular?**

- Xəzərin hidrometeoroloji amillərini nəzərə almaqla deyə bilərəm ki, burada üzmək daha çətindir. Bunu uzaq səfərlər etmiş kapitanlar da təsdiqləyirlər. Xarici sularda Azərbaycan bayrağı altında üzmək isə ayrı qürur hissidir. Xaricdə çalışan hər bir dənizçimiz ölkəmizin simasıdır. Biz də hər zaman çalışmalıyıq ki, bu simanı parlaq və təmiz saxlayaq.

**- Gəmidəki mühit hər kəsə maraqlıdır. Eyni insanlarla aylarla bir yerdə işləyirsiniz. Bu, çətin deyil?**

- İl ərzində doğma ailəmizdən çox bu insanlarla bir yerdə qalırıq. Aylarla eyni heyətlə bir gəmidə çalışmaq, birlikdə qeyd etdiyimiz ad günləri, bayramlar bizi bir-birimizə doğmalaşdırır. Təbii, bunların hamısını mehriban bir kollektivlə keçirəndə daha maraqlı olur. İşimiz nə qədər çətin olsa da, birlikdə gördüyümüz işlər bizə güc verir.



**- Necə düşünürsüz, dəniz həyatı insanın xarakterinə, xasiyyətinə təsir edə bilərmi?**

- İnsan yaşa dolduqca onun xasiyyətinə uyğun olaraq xarakteri formalaşır. Həftələrlə quruya ayaq basmadan, şıltaq ləpələrin qoynunda, yorğun və stresli günlər bizə təsir etməyə bilməz. Bunlar da təbii olaraq insan xarakterində müəyyən dəyişikliklərə gətirib çıxarır.

**- Yaxşı dənizçi olmaq üçün nə etmək lazımdır?**

- Dənizdən qorxmamaq və eyni zamanda gördüyün işin məsuliyyətini dərk etmək lazımdır. Gözlənilmədən baş verə biləcək hər hansı bir hadisəyə, istənilən vəziyyətə hazırlıqlı olmaq ən vacib məsələlərdəndir. Fikrimcə, bütün bunların ümumi məcmusu yaxşı dənizçi obrazını yaratmağa imkan verir.

**- Boş vaxtlarınızda nə işlə məşğul olursunuz gəmidə?**

- Dənizçilər üçün hər zaman yuxu və sağlam qidalanma əsas şərtdir. Əgər gün ərzində normal yuxu rejimim pozulmayıbsa, istirahət vaxtı ixtisasımla bağlı dərslikləri oxuyur, əlavə vaxtım qalanda isə film izləyirəm.

**- Dənizçilər romantik olur və əksəriyyəti şeir yazır. Sizin də belə bir istedadınız varmı?**

- Yox, mən şeir yazmıram. Amma başqa hobbilərim var. Uşaqlıqdan futbolu çox sevirəm. Bu idman növünə aid xeyli aksessuarım (futbol formaları, şarf, oyun biletləri) var. Əlavə olaraq, dünya ölkələrinin pul nişanları və valyutaları haqqında elmlə maraqlanıram. Buna Bonistika (Cəmiyyətin iqtisadi və siyasi vəziyyətini əks etdirən tarixi sənədlər, istifadədən çıxan pul nişanları və bonları öyrənən köməkçi tarixi fənn olan bonistika XX əsrin əvvəllərində yaranıb və numizmatika ilə sıx bağlıdır) deyilir. Hazırda 132 ölkənin müxtəlif dövrlərdə istifadə etdiyi 700-ə yaxın kağız əskinasım var.

**- Gələcəklə bağlı nə kimi hədəfləriniz var?**

- Bir dənizçinin ən böyük hədəfi nə ola bilər? Əlbəttə ki, kapitan olmaq...Bu zirvəyə çatmaq üçün çalışıram. Bundan başqa, gələcəkdə ASCO-nun struktur bölmələrində işləməyi də istisna etmirəm.

***Rövşən ABDURƏHMANOV***

# Birinci vitse-prezident Mehriban Əliyeva: "Onun yoxluğunu hər zaman hiss edirəm"

***Görkəmli şərqşünas alim, istedadlı pedaqoq, incə qəlbə malik insan, gözəl övlad və həyat yoldaşı, fədakar ana... Qısa, lakin mənalı ömür sürmüş Aida İmanquliyeva yaddaşlarda belə qalıb.***

Sentyabrın 19-u görkəmli şərqşünas alim Aida İmanquliyevanın anım günü idi. Azərbaycan şərqşünaslığında ilk qadın elmlər doktoru, professor Aida İmanquliyevanın həyat və fəaliyyətinin bəzi məqamlarına nəzər salaq.

Aida Nəsir qızı İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakıda ziyalı ailəsində anadan olub. 1957-ci ildə Bakı şəhəri 132 nömrəli orta məktəbi qızıl medalla bitirib və Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) şərqşünaslıq fakültəsinin ərəb filologiyası bölməsinə qəbul olunub. 1962-ci ildə universiteti bitirəndən sonra bu təhsil müəssisəsinin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının aspirantı olub, həmçinin keçmiş SSRİ EA Asiya Xalqları İnstitutunun aspiranturasında təhsil alıb. 1966-cı ildə namizədlik dissertasiyasını müdafiə edən Aida İmanquliyeva Azərbaycan EA Şərqşünaslıq İnstitutunda əmək fəaliyyətinə başlayıb. O, istedadı, zəhmətsevərliyi sayəsində kiçik elmi işçidən baş elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini və nəhayət, Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsinədək yüksəlib.

1989-cu ildə Aida İmanquliyeva Tbilisi şəhərində doktorluq dissertasiyası müdafiə edib və çox keçmədən bu ixtisas üzrə professor adı alıb.

Üç monoqrafiya ("Mixail Nüaymə və "Qələmlər birliyi", "Cübran Xəlil Cübran", "Yeni ərəb ədəbiyyatı korifeyləri") və 70-dən çox elmi məqalənin müəllifi Aida İmanquliyeva Şərq filologiyası sahəsində yazılmış bir çox elmi əsərlərin redaktoru idi. Azərbaycan EA Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən "Asiya və Afrika ölkələri xalqları ədəbiyyatları" ixtisası üzrə müdafiə şurasının sədri olub. Azərbaycan şərqşünaslıq elmini keçmiş SSRİ məkanında və onun hüdudlarından kənarda layiqincə təmsil edib.

O, elmi-təşkilati fəaliyyətində yüksəkixtisaslı ərəbşünas kadrlar hazırlanmasına böyük diqqət yetirirdi. Rəhbəri olduğu Ərəb filologiyası şöbəsində qısa müddətdə 10-dan çox namizədlik dissertasiyası müdafiə edilmişdi.

Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının üzvü olan Aida İmanquliyeva uzun illər səmərəli pedaqoji fəaliyyət göstərib, Azərbaycan Dövlət Universitetində ərəb filologiyası fənnindən mühazirələr oxuyub.

Professor Aida İmanquliyeva Azərbaycanda Şərq-Qərb ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk azərbaycanlı alimdir. Onun çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii üslubun təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, həmçinin bütün yeni Şərq ədəbiyyatlarının həmin aspektdə tədqiqi üçün mühüm zəmin yaradır. Bir alim kimi Aida İmanquliyevanın maraq dairəsi geniş və çoxşaxəli idi. Amma onun çoxsaylı elmi araşdırmalarının əsas tədqiqat obyekti ərəb məhcər ədəbiyyatı olub. Aida İmanquliyeva ərəb məhcər ədəbiyyatının beynəlxalq miqyasda ən görkəmli, ən sanballı tədqiqatçısı idi. Bunu nəinki Azərbaycan və keçmiş sovet ərəbşünasları, hətta Avropa şərqşünasları belə etiraf edirlər.

Əhatəli elmi fəaliyyəti ilə yanaşı, Aida xanımın gözəl, nümunəvi ailəsi olub və o, cəmiyyət üçün ləyaqətli övladlar tərbiyə edib. Həyatını elmə həsr edən böyük qızı Nərgiz Paşayeva M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidentidir. Bu ailənin ikinci qızı – Mehriban Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiridir. Milyonların məhəbbətini qazanmış Birinci vitse-prezident Mehriban Əliyevaya məsuliyyət hissini, hər bir işin əvvəlindən maksimum nəticə əldə etməyə çalışmağı, özünə tələbkar və intizamlı münasibəti anası - nəcib, parlaq, prinsipial, istedadlı, məğrur, son dərəcə gözəl bir xanım olan Aida İmanquliyeva aşılayıb. Mehriban xanım deyir: "Onun böyük sevən ürəyi, incə və səxavətli qəlbi var idi. Onun yoxluğunu hər zaman hiss edirəm".

Aida xanımın xatirəsi ürəklərdə əbədi yaşayır. Əsərləri dönə-dönə oxunur, təhlil və tədqiq edilir, tərcümə olunur, yenidən işıq üzü görür. Onun əsərləri, elmi monoqrafiyaları bu gün də aktuallığını qoruyub saxlayır, gənc nəsillər görkəmli şərqşünas alim Aida İmanquliyevanın əsərlərinə daim müraciət edirlər.

# Dinamik Mövqe Saxlama təlimlərinə həsr olunmuş konfransa ASCO-nun Təlim-Tədris Mərkəzinin direktoru da qatılıb

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Təlim-Tədris Mərkəzinin direktoru Emil Manafov Böyük Britaniyanın nüfuzlu "The Nautical Institute" təşkilatının təşkil etdiyi konfransa qatılıb.***

Koronavirus pandemiyası ilə əlaqədar onlayn formatda keçirilən konfrans Dinamik Mövqe Saxlama üzrə təlimlərə həsr olunub. Tədbirdə təlimlərin təşkili zamanı yeni metodların tətbiqindən danışılıb, tədris proqramları, pandemiya ilə əlaqədar təlim prosesində ortaya çıxan problemlər müzakirə edilib.

Konfransda dənizçilik sahəsində fəaliyyət göstərən təcrübəli mütəxəssislər çıxış edərək mövzu ilə bağlı fikirlərini bölüşüblər. Həmçinin, burada təcrübə mübadiləsi aparmaq üçün əlverişli şərait yaranıb.

Qeyd edək ki, 2017-ci ildə "The Nautical Institute" təşkilatı ASCO-nun Təlim-Tədris Mərkəzinin Dinamik Mövqe Saxlama Simulyatoruna sertifikat verib. Bu sertifikat "DP İnduction" və "DP Simulator" təlimlərinin keçirilməsinə şərait yaradır. Hazırda Təlim-Tədris Mərkəzi dünyada "DP İnduction" və "DP Simulator" təlimlərinin keçirilməsinə səlahiyyəti olan 85 mərkəzdən biri, Azərbaycanda isə yeganə təşkilatdır.

***Rövşən Abdurəhmanov***

# ADDA-nın professoru 5 nominasiyada sertifikata layiq görülüb

***Bu ilin may ayında Niderlandın "Elsevier" korporasiyasının təşkilatçılığı və Təhsildə Keyfiyyət Təminatı Agentliyinin koordinatorluğu ilə Azərbaycanın ali təhsil müəssisələri üçün "Science Direct" və "Scopus" platformaları ilə tanışlıq məqsədi daşıyan onlayn təlimlər keçirilib.***

Rus və ingilis dillərində keçirilən təlimlər 2 sessiyadan ibarət olub. Ölkəmizin 10 ali təhsil müəssisəsindən 400-ə yaxın akademik işçi heyətinin iştirak etdiyi təlimlərdə dinləyicilərə "Science Direct" və "Scopus" bazalarından istifadə qaydaları haqqında məlumat verilib.

Azərbaycan Dövlət Dəniz Akademiyasının "Tətbiqi mexanika" kafedrasının müdiri, texnika elmləri doktoru, professor Vaqif Həsənov da sözügedən təlimin iştirakçıları arasında olub.

"Elsevier Azerbaijan Webinar Series"-in təşkil etdiyi "Researcher Academy On Campus" distant təhsilə aid təlimin nəticəsinə görə ADDA-nın professoru V. Həsənov 5 nominasiyada sertifikatlara layiq görülüb.

Qeyd edək ki, Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə "Elsevier" korporasiyası arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb. Əməkdaşlığın əsas məqsədi Azərbaycanın ali təhsil müəssisələrinin beynəlxalq elmi məlumat bazalarına çıxışının genişləndirilməsi, beynəlxalq elmi nəşrlərin sayının artırılması, nəşr olunan elmi məqalə və jurnalların beynəlxalq tələblərə uyğunlaşdırılması və nəticə olaraq təhsil müəssisələrimizin nüfuzlu qurumlara məxsus beynəlxalq reytinq siyahılarında ("QS World University Rankings", "The Financial Times", "Shanghai Ranking" və s.) irəliləməsinə nail olmaqdır.

# "Təhsil kartı" olan tələbələr üçün xüsusi endirim kampaniyaları tətbiq olunacaq

***Gənclərin təhsilinə, müasir çağırışlara uyğun bilik və bacarıqlara yiyələnməsinə dəstək olan Azərbaycan Beynəlxalq Bankı bu sahədə daha bir layihənin icrasına başlayıb. Bank "Təhsil kartı" adlı yeni məhsulunu təqdim edib.***

Yeni kart məhsulu tələbələrin təhsil zamanı ehtiyac duyduqları bank xidmətlərinin yüksək səviyyədə təmin olunmasına imkan yaradır. Belə ki, Azərbaycan Beynəlxalq Bankının "Təhsil kartı" vasitəsilə tələbələr öz təqaüdlərini alacaq, ölkə daxilində, xaricdə, bankın mobil tətbiqi vasitəsilə istənilən ödənişlərini həyata keçirəcəklər. Təhsil kartının ön hissəsində tələbə haqqında məlumatlar, arxa hissəsində isə ödəniş kartının məlumatları əks olunur. Beləliklə, tələbələr bu kartdan universitetə, universitet kitabxanasına, oxu zallarına giriş üçün də istifadə edə biləcəklər.

"Təhsil kartı" 5 il müddətinə təqdim olunacaq. Azərbaycan Beynəlxalq Bankının "QaygıCash" layihəsi çərçivəsində Bankla tərəfdaş məkanlarda bu kartla aparılan ödənişlər zamanı tələbələr kəşbək qazanacaqlar. Yəni, bu kartla etdikləri ödənişlərin müəyyən faizləri onların kart hesabına geri qayıdacaq. Yaxın gələcəkdə "Təhsil kartı"nın istifadə dairəsi daha da genişləndiriləcək. Tələbələr üçün xüsusi endirim kampaniyaları tətbiq olunacaq.

Hazırda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dövlət Dəniz Akademiyası və M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı filialı ilə Bank arasında "Təhsil kartı" layihəsi üzrə müqavilə imzalanıb və tələbələrə kartların təqdim edilməsinə başlanılıb.

Azərbaycan Beynəlxalq Bankı bu layihəni "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın icrası çərçivəsində Mərkəzi Bank, Təhsil Nazirliyi, MasterCard beynəlxalq ödəniş sistemi ilə birgə əməkdaşlıq üzrə həyata keçirib.

# Ukraynanın coğrafi mövqeyi Azərbaycanın bu ölkədən Avropaya nəqliyyat dəhlizi kimi istifadə etməsini mümkün edir

***Xarici iqtisadi əlaqələr sahəsində Azərbaycanın strateji tərəfdaşlarından biri Ukraynadır. Bu ölkə güclü tədqiqat və istehsal potensialına malikdir, inkişaf etmiş sənaye, kənd təsərrüfatı və nəqliyyat infrastrukturuna malikdir. Hər iki ölkənin iqtisadiyyatının potensial imkanları iqtisadi əlaqələrin yeni əsasda qurulmasını zəruri edib.***

Bu sözləri Ukraynanın Kremençuk şəhərində keçirilən "UrbanBiznesfest" biznes forumunda çıxışı zamanı Azərbaycanın bu ölkədəki səfirliyinin müşaviri Kamal Xəlilov deyib.

O bildirib ki, Ukraynanın coğrafi mövqeyi Azərbaycanın bu ölkədən Avropaya nəqliyyat dəhlizi kimi istifadə etməsini mümkün edir. Cənubi Qafqazda isə Azərbaycan Ukraynanın ən vacib siyasi və iqtisadi tərəfdaşıdır. Qeyd etmək lazımdır ki, regional və beynəlxalq məsələlərdə hər iki ölkə eyni mövqedən çıxış edir, eyni zamanda, bütün məkanlarda bir-birlərinin ərazi bütövlüyü və suverenliyini davamlı olaraq dəstəkləyirlər.

K.Xəlilov daha sonra Azərbaycanda xarici sahibkarlar üçün münbit şəraitin yaradılması haqqında məlumat verərək Ukraynanın iş adamlarını Azərbaycana investisiya qoymağa çağırıb.

Biznes forumdan sonra şirkət rəhbərləri ilə görüş keçirilib. Azərbaycan və Ukrayna arasında birgə iqtisadi layihələrin reallaşdırılmasının istiqamətləri müəyyənləşdirilib.

Daha sonra səfirliyin nümayəndəsi ilə şəhər meri Vitali Maletskiy arasında görüş keçirilib. Görüşdə iki ölkənin regionları arasında əməkdaşlığın daha da gücləndməsinin vacibliyi vurğulanıb. Görüşün sonunda Azərbaycan adından merə İrəvan xanlığına aid olan xalçalara dair kitab təqdim edilib. K.Xəlilov bildirib ki, İrəvan xalçaları Azərbaycanın tarixən daha çox tanınan xalçalar qrupuna aiddir.

***Emil Hüseynli***

# ASCO-nun İctimaiyyətlə əlaqələr departamentinin hazırladığı animasiya çarxında dünyada ilk dəfə "Aleksandr" barjı ilə Xəzərdə Bakı neftinin daşınması canlandırılıb

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) İctimaiyyətlə əlaqələr departamenti 20 sentyabr - "Neftçilər Günü" münasibətilə informasiya xarakterli animasiya çarxı hazırlayıb.***

Animasiya neft tarixində inqilabi hadisə sayılan dünyada ilk dəfə "Aleksandr" barjı ilə Xəzərdə Bakı neftinin birbaşa tryumda daşınmasına həsr olunub.

Videoda sözügedən tarixi hadisə xronoloji ardıcıllıqla nümayiş etdirilir. Belə ki, animasiyada Bakıdan Həştərxana çəlləklərlə neft daşıyan Rusiya tacirləri Nikolay və Dmitri Artyomov qardaşlarının səfərləri canlandırılır. Qardaşların gəmisinin fırtınaya düşməsi, gəmidəki taxta çəlləklərin aşması və neftin tryuma dağılması, daha sonra tryuma tökülən neftin limana itkisiz çatması göstərilir.

Animasiyada bu hadisənin tacir qardaşlara yeni ideya verdiyi qeyd olunur. Artyomovlar 1873-cü ildə özlərinin "Aleksandr" adlı yelkənli gəmisinin tryumunda yenidənqurma işləri görürlər. Beləliklə, neftin barjlar vasitəsilə tryumda daşınmasının əsası qoyulur.

Qeyd edək ki, bu, ASCO-nun İctimaiyyətlə əlaqələr departamentinin hazırladığı ilk animasiya çarxıdır. Çarxın hazırlanmasında əsas məqsəd müasir texnologiyalardan istifadə etməklə tariximizi canlandırmaqdır.

# Qəza anında "Amorella" bərəsində 207 sərnişin və 74 heyət üzvü olub

***Finlandiyada saya oturan bərədən 200-dən çox sərnişin təxliyə olunub.***

İsveç KİV-ləri xəbər verir ki, "Viking Line" şirkətinə məxsus "Amorella" bərəsi bazar günü yerli vaxtla təxminən saat 12.35-də Aland adaları ərazisində saya oturub.

Finlandiyanın Turku limanından İsveç paytaxtına səmt götürən gəminin gövdəsi naməlum səbəbdən deşilib və bölmələrdən birinə su dolub. Bununla əlaqədar Yarsö adası sahillərinə doğru üzmək barədə təcili qərar qəbul edilib.

Sərnişinlərin təxliyəsi yerli vaxtla 15.40-da başlayıb. Qərbi Finlandiyanın sahil mühafizə xidmətinin məlumatına görə təxliyə işləri dörd gəmidən istifadə olunmaqla həyata keçirilib. Əvvəlcə sərnişinlər, sonra heyətin bir hissəsi təxliyə olunub.

Qəza anında gəmidə 207 sərnişin və 74 heyət üzvü olub. Az sonra Finlandiyanın sahil mühafizə xidməti bütün sərnişinlərin və heyət üzvlərinin bir hissəsinin uğurla təxliyə edildiyini bildirib. Zərər çəkənlər barədə hələ ki, məlumat yoxdur.

Bədbəxt hadisələrin təhqiqatı üzrə Finlandiya Şurası hadisə ilə bağlı araşdırmaya başlandığını xəbər verib.

***Rauf Əliyev***

# "Rəsul Rza" gəmisi təmirdən sonra yenidən xarici sulara yola salınıb

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Dəniz Nəqliyyatı Donanmasına aid və xarici sularda üzən "Rəsul Rza" quru yük gəmisinin əsaslı təmiri başa çatıb.***

Təmir prosesi "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda aparılıb. Burada gəminin baş və köməkçi mühərrikləri, mexanizmləri (nasosları) təmir olunub. Eyni zamanda, gəmidə boru quraşdırma, elektrik quraşdırma, avtomatika və gövdə qaynaq işləri görülüb.

Bundan başqa, gəminin sualtı və suüstü hissələri tam təmizlənərək rənglənib, yaşayış və xidməti otaqları müasir tələblər səviyyəsində təmir olunub.

Təmir başa çatdıqdan sonra gəmi müvafiq yoxlanışdan uğurla keçib və dənizçilərin ixtiyarına verilib.

"Rəsul Rza" quru yük gəmisi yenidən Xəzərdənkənar sularda yükdaşımalara cəlb edilib. Gəmi Türkmənistanın Bektaş limanından yük götürərək Türkiyənin Gebze limanına doğru yola düşəcək.

Qeyd edək ki, "Rəsul Rza" gəmisi 2016-cı ildən Azərbaycan bayrağı altında xarici sularda üzür. Uzunluğu 108,33 metr, eni 16,74 metr olan teploxod 5200 ton yükgötürmə qabiliyyətinə malikdir.

# "General Əliağa Şıxlinski" gəmisi yüksək keyfiyyətlə təmir edilib

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) "General Əliağa Şıxlinski" gəmisinin təmir işləri "Bibiheybət" Gəmi Təmiri Zavodunda yerinə yetirilib.***

Təmir müddətində pər-sükan qurğuları elektrik mühərrikləri ilə birlikdə, 600 tonluq kran qolu (strela) demontaj olunaraq çıxarılıb və əsaslı təmirdən sonra yerinə quraşdırılıb. Kranın bütün burazları dəyişdirilib, yük göyərtəsi və üst tikili təmizlənərək rənglənib. Eyni zamanda digər maşın və mexanizmlərə baxış keçirilib və lazım olan texniki xidmət göstərilib.

İşlər başa çatdıqdan sonra gəminin kran qurğusunun sınaq işləri aparılıb və uğurla başa çatıb. Mexanizm və elektrik avadanlıqlarının hərəkətdə yoxlanılması məqsədilə gəmi dəniz sınağına çıxarılıb. Müvəffəqiyyətlə başa çatan sınaq işlərindən sonra gəmi Registr təsnifatı nümayəndələrinə təhvil verilib.

"General Əliağa Şıxlinski" kran gəmisi dənizdə neft və qazçıxarma obyektlərinin tikintisində istifadə olunur. Gəminin uzunluğu 141.4, eni 54.5 metrdir. Gəmi 3×2510 at gücündə sükan-pər qurğuları ilə (VRK) təchiz olunub.

***Turab Məmmədov***

# ADDA-nın tələbələrinə təqaüdlər təyin edilib

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) təhsildə fərqlənən Azərbaycan Dövlət Dəniz Akademiyasının tələbələrini həvəsləndirmək məqsədi ilə daim onları əlavə təqaüdlə təmin edir. Bu il də yaz semestrində fərqlənən 71 əlaçı bakalavr və 4 əlaçı magistr ASCO-nun sədri Rauf Vəliyevin əmri ilə xüsusi təqaüdə layiq görülüb.***

Bununla belə, 2019/2020-ci tədris ilinin yaz semestrinin imtahan sessiyasının nəticələrinə görə, ADDA-nın "Gəmi sürücülüyü" fakültəsinin "Dəniz naviqasiyası mühəndisliyi" və "Gəmiqayırma və gəmi təmiri mühəndisliyi" ixtisasının bakalavriat pilləsində təhsil alan 53 tələbəsi "Əlaçı" təqaüdünə layiq görülüb. Bu tələbələr imtahan sessiyasını 91-100 bal aralığında göstərici ilə bitiriblər. 135 tələbə növbəti semestrdə həvəsləndirici təqaüd almaq şansı qazanıb. Qaydalara görə, bu tələbələrin imtahan sessiyası üzrə ümumi orta balı 71-100 və ən azından bir akademik fənn üzrə göstəricisi 91-100 bal arasında olmalıdır. "Gəmi sürücülüyü" fakültəsinin 29 tələbəsi isə adi təqaüd alacaq.

Fakültənin magistratura pilləsində təhsil alan tələbələrdən 4-ü əlaçı, 5-i həvəsləndirici və 1 nəfər adi təqaüdə layiq görülüb.

Akademiyanın "Gəmi mexanikası və elektromexanikası" fakültəsinin "Gəmi energetik qurğularının istismarı mühəndisliyi" və "Elektrik mühəndisliyi" ixtisaslarının 18 bakalavr tələbəsi əlaçı, 112 tələbəsi həvəsləndirici, 51 tələbəsi isə adi təqaüd alacaq.

"Gəmi mexanikası və elektromexanikası" fakültəsinin magistratura pilləsinin 1 magistrantı həvəsləndirici, 3-ü isə adi təqaüd almaq hüququ qazanıb.

Bu fakültədə əlaçı təqaüdünə layiq görülən 2 tələbə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən təqaüd miqdarının 2 mislini alacaq.

Bu il COVİD-19 pandemiyasının ölkədə təhsil prosesinə vura biləcəyi zərər nəzərə alınmaqla Nazirlər Kabinetinin yaz imtahan sessiyasının keçirilməsi və təqaüdlərin təyin edilməsi qaydalarına müvəqqəti dəyişikliklər olub. Belə ki, hər hansı səbəbə görə onlayn imtahanlara qoşula bilməyən, akademik borcu yaranan tələbələr üçün yeni 2020/2021-ci tədris ili başlayanadək bu borcları ləğv edərək təqaüd siyahısına düşmək imkanı yaradılıb.

Qeyd edək ki, Akademiyanın 4 tələbəsi bu imkandan yararlana bilib.

***Musa ƏLİYEV***

# Ağ ev Rusiyadan Baltik dənizinin dibi ilə Almaniyaya qaz kəməri tikintisinə kəskin etiraz edir

***"Şimal axını-2" qaz kəmərinin tikintisində iştirak edən şirkətlərə və təşkilatlara ABŞ tərəfindən tətbiq edilən sanksiyaların götürülməsi müqabilində Almaniya okeanın o tayından maye təbii qaz (MTQ) qəbulu üçün öz vəsaiti hesabına iki iri terminal tikməyi təklif edir.***

Federal hökumətin bu təklifi yerli KİV-lərdə qızğın müzakirə mövzusuna çevrilib.

Məlum olduğu kimi, Ağ ev hələ Barak Obamanın dövründən Rusiyadan Baltik dənizinin dibi ilə Almaniyaya qaz kəməri tikintisinə kəskin etiraz edirdi.

Amerikalılar Rusiya qazının alternativi kimi öz maye təbii qazlarını təklif edir, lakin bu MTQ-nin qiyməti təbii qaz yanacağının qiymətindən xeyli yüksəkdir. Almaniya ABŞ tərəfindən göstərilən təzyiqə qarşı uzun müddət müqavimət göstərdi. Nəticədə ABŞ bu qaz kəmərinin tikintisinə iştirak edən şirkətlərə və təşkilatlara qarşı sanksiyalar tətbiq etdi. İndi Berlin həmin layihəni xilas etmək və daha ucuz qaz mənbəyini itirməmək üçün həmin sanksiyaların götürülməsi müqabilində ABŞ-a öz limanlarında MTQ qəbulu üzrə iki meqaterminal tikməyi təklif edir. Onlardan biri Brunsbyutteldə (Şlezviq-Qolşteyn federal əyaləti), digəri Vilhelmshafendə (Aşağı Saksoniya federal əyaləti) yerləşir.

Okeanın o tayından bu təklifə hələ cavab verilməyib.

***Vüqar Seyidov***

# "Şimal-Cənub" nəqliyyat dəhlizinin təməlinin qoyulmasından 20 il ötür

***Sentyabrın 12-də Azərbaycanın da iştirak etdiyi mühüm beynəlxalq tranzit marşrutlardan olan "Şimal-Cənub" nəqliyyat dəhlizinin təməlinin qoyulmasının 20 ili tamam oldu.***

Rusiya, İran və Hindistan arasında iqtisadi əməkdaşlığın gücləndirilməsinə xidmət edən bu sazişə ölkəmiz 2005-ci ildə qoşulub.

Layihə çərçivəsində Azərbaycan İran sərhədinə qədər dəmir yolunun və Astara (İran) yük terminalının tikintisini təmin edib. Eyni zamanda, Astara çayının üzərində dəmir yolu körpüsü inşa olunub.

Dəhlizin yaradılmasında məqsəd Hindistandan Rusiya və Avropaya, eləcə də əks istiqamətdə gedən yüklərin çatdırılma müddətini azaltmaqdır.

# Qaçqınların yerləşdirilməsi üçün adaya gəmilər və çadırlar gətiriləcək

***Yunanıstanın Lesbos adasında polislə miqrantlar arasında qarşıdurma baş verib.***

Adada baş vermiş yanğın nəticəsində Moria qaçqınlar düşərgəsindən olan miqrantlar Mitilini limanı tərəfə qaçaraq adanı tərk etmək istəyiblər. Bu zaman miqrantlarla polis arasında qarşıdurma yaşanıb. Polis gözyaşardıcı qaz tətbiq etməklə etirazın qarşısını almağa və iştirakçıları qanuna riayət etməyə çağırıb.

Tezliklə adaya qaçqınların yerləşdirilməsi üçün gəmilər və çadırlar gətiriləcək. Eyni zamanda, polis əməkdaşlarının sayı artırılacaq.

Qeyd edək ki, Lesbos adasında qaçqınlar düşərgəsində yanğın baş verdikdən sonra 12 min 800 miqrant təxliyə olunub. Adada fövqəladə vəziyyət elan edilib. Qaçqınlara adanı tərk etmək qəti qadağan olunub.

***İqbal Hacıyev***

# Azərbaycan dəniz nəqliyyatı sahəsində öhdəlikləri uğurla icra edən birinci dövlət olub

***Beynəlxalq Dəniz Təşkilatı (IMO) tərəfindən 174 üzv dövlətdə həyata keçirilən audit yoxlamalarının nəticələri təhlil edilərək Azərbaycan hökumətinə rəsmi məktub ünvanlanıb.***

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyindən bildirilib ki, Beynəlxalq Dəniz Təşkilatının rəsmi saytında öz əksini tapan təhlilin nəticələrinə görə, Avropanın ən qabaqcıl dəniz dövlətlərini belə geridə qoyan Azərbaycan dəniz nəqliyyatı sahəsində götürülən öhdəliklərin uğurla icrasını təmin edən birinci dövlət olub.

Məktubda göstərilir ki, Beynəlxalq Dəniz Təşkilatına üzv olan 174 dövlətdə beynəlxalq müstəqil ekspert qrupu tərəfindən həyata keçirilən sistemli yoxlamalar Azərbaycanda da reallaşdırılıb. Xüsusi olaraq vurğulanır ki, yoxlama zamanı Avropa dövlətlərini geridə qoyaraq ön sırada yer tutan Azərbaycan dəniz nəqliyyatı sahəsində qoşulduğu beynəlxalq konvensiyaların icrası istiqamətində diqqətəlayiq uğurlara imza atıb.

Sənəddə vurğulanır ki, Beynəlxalq Dəniz Təşkilatına üzv olan 174 dövlət arasında yalnız Azərbaycan audit ekspert qrupunun tövsiyələrinə hər zaman ciddi yanaşaraq tədbirlərin səmərəli şəkildə həyata keçirildiyini təsdiq edən kifayət qədər məlumat və sübutlar təqdim edib.

Audit yoxlamasından sonra davam edən monitorinqlər zamanı müəyyən olunub ki, Azərbaycanda dəniz nəqliyyatı sahəsində dövlət siyasətini həyata keçirən Dövlət Dəniz Agentliyi tərəfindən "Dənizdə insan həyatının mühafizəsinə dair" (SOLAS-74), "Dənizin gəmilərdən çirkləndirilməsinin qarşısının alınmasına dair" (MARPOL), "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair 1978-ci il tarixli Beynəlxalq Konvensiya"ya dair (STCW), "Dənizdə gəmilərin toqquşmasının qarşısının alınmasına dair beynəlxalq qaydalar haqqında Konvensiya" (COLREG), "Beynəlxalq dəniz gəmiçiliyinin asanlaşdırılması haqqında Konvensiya" kimi dəniz nəqliyyatı sahəsində 20-dən çox beynəlxalq konvensiya və protokolların icrası ilə bağlı müsbət nailiyyətlər əldə olunub.

Azərbaycanın dəniz nəqliyyatı sahəsində əldə etdiyi bu uğur Beynəlxalq Dəniz Təşkilatının Assambleyasının mötəbər tribunasından səslənərək rəsmi hesabatda 174 üzv dövlətin nümayəndələrinə təqdim olunub.

Qeyd olunanlar bir daha sübut edir ki, Prezident İlham Əliyev tərəfindən formalaşdırılmış dövlət siyasətinə uyğun olaraq ölkənin dinamik inkişafı, tranzit potensialının artırılması, regionun ən böyük nəqliyyat mərkəzi kimi mövqeyinin möhkəmləndirilməsi, qədim dənizçilik tarixinə malik olan respublikamızın dəniz qüdrətinin daha da yüksəldilməsi, eləcə də qabaqcıl dəniz dövlətləri ilə rəqabətə davamlı dəniz nəqliyyatı sahəsinin formalaşdırılması istiqamətində gələcəkdə də uğurların əldə ediləcəyi şübhəsizdir.

# Xilas edilmiş miqrantların əksəriyyəti qadın və uşaqlar olub

***Türkiyənin sahil mühafizəsi Muğla cənub-qərb əyalətinin Bodrum kurort rayonunun sahilləri yaxınlığında 19 qeyri-leqal miqrantı xilas edib.***

Türkiyənin sahil mühafizəsinə miqrantları daşıyan qayığın vəziyyəti haqqında Bodrum-Datça reysini yerinə yetirən "Kemal Reis 3" sərnişin bərəsinin kapitanı məlumat verib.

Xilas edilmiş miqrantların əksəriyyəti qadın və uşaqlardır.

Miqrantlar gəminin Yunanıstanın sahil mühafizəsi katerləri tərəfindən Türkiyənin ərazi suları istiqamətində itələndiklərini bildiriblər.

# Dünya əhalisinin sayının 2100-cü ildə 16 milyarda çatacağı ehtimal olunur

***Dünya əhalisinin sayı artmağa davam edir. Hazırda 7,5 milyarddan çox olan dünya əhalisinin sayının 2100-cü ildə 16 milyarda çatacağı ehtimal olunur. Bu barədə Türkiyənin "Milliyet" qəzeti yazıb.***

Bildirilir ki, artan əhali sıxlığı bəzi bölgələrdə yoxsulluq və müharibə riskini də artıracaq. Bu gün 1,5 milyard insanın yaşadığı Çin 2100-cü ildə əhalisinin yarısından çoxunu itirəcək. Buna səbəb doğum səviyyəsinin çox aşağı olması, əhalinin sayını tənzimləməklə bağlı proqramların tətbiqidir. Beləliklə, Çin əhali sayına görə, dünyada üçüncü pilləyə düşəcək. Hindistan ilk pilləyə, Nigeriya isə ikinci pilləyə yüksələcək.

2100-cü ildə əhali sayına görə dünya ölkələrinin ehtimal olunan ilk onluğu belə təqdim olunur:

Hindistan – 1,09 milyard
Nigeriya – 791 milyon
Çin – 732 milyon
ABŞ – 336 milyon
Pakistan – 248 milyon
Konqo – 246 milyon
İndoneziya – 229 milyon
Efiopiya – 223 milyon
Misir – 199 milyon
Tanzaniya – 186 milyon.

***R.TAHİR***

# Azərbaycan dünyanın nəqliyyat xəritəsini yenidən tərtib edir

***Ölkəmizdə icra edilən nəhəng infrastruktur layihələrinin beynəlxalq qurumlar tərəfindən yüksək qiymətləndirilməsi yeni fakt deyil. Həmin qurumlar dəfələrlə öz hesabatlarında Azərbaycanda bu istiqamətdə görülən işlərin təkcə ölkəmiz deyil, dünya üçün də böyük əhəmiyyət daşıdığını bildiriblər.***

Məhz bu tədbirlər sayəsində ölkəmiz hazırda dünyanın mühüm nəqliyyat dəhlizlərinin qovşağına çevrilib. İndi Şərq-Qərb və Şimal-Cənub istiqamətlərində gedən əsas yollar Azərbaycandan keçir.

Xəbər verildiyi kimi, Çinin şərqindəki Cician vilayətinin Cinhua şəhərindən sentyabrın 10-da yola salınan yük qatarının 15-18 gün sonra Bakıya çatması planlaşdırılıb. Sənaye avadanlığı və məişət əşyaları da daxil 100 konteynerdən ibarət olan qatar Qazaxıstanın Xəzər dənizi sahilindəki Aktau limanına çatdıqdan sonra oradan bərə ilə Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanına yola salınacaq.

Qeyd edək ki, bu marşrutla yüklərin daşınması ənənəvi marşrutlarla müqayisədə daha tez reallaşacaq. İlkin mərhələdə marşrut üzrə 1-2 qatarın yola salınması nəzərdə tutulsa da, gələcəkdə qatarların sayının daha artıq olması proqnozlaşdırılıb. Onu da bildirək ki, Bakı-Tbilisi-Qars dəmir yolu xətti istifadəyə verildikdən sonra Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu ilə yüklərin Çindən Avropaya və əks istiqamətə daşınması həyata keçirilir. Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çinin nəhəng layihəsi olan "Bir kəmər, bir yol" təşəbbüsünün icrasında əhəmiyyətli rol oynayır.

Vaxtında görülən işlər sayəsində ölkəmiz hazırda dünyanın mühüm nəqliyyat dəhlizinin - Şərq-Qərb, Şimal-Cənub marşrutu üzrə önəmli qovşağına çevrilib. Yəni bu istiqamətdə gedən bütün yollar Azərbaycanda birləşir.

Prezident İlham Əliyev bu sahədə həyata keçirilən işləri yüksək qiymətləndirərək bildirmişdir: "Bu layihə dünyanın nəqliyyat xəritəsini yenidən tərtib edir və bu layihə açıq dənizə çıxışı olmayan Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzinə çevirəcəkdir. Eyni zamanda biz "Şimal-Cənub nəqliyyat dəhlizi"nə də çox böyük diqqət yetirmişik... Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin iştirakçıları bir çox ölkələrdir. Ancaq onların arasında yeganə ölkə Azərbaycandır ki, hər iki layihədə iştirak edir və hər iki layihənin reallaşmasına öz dəyərli töhfəsini vermişdir. Bu, bizə gələcəkdə həm siyasi, həm iqtisadi dividendlər gətirəcək, artıq gətirir".



Məlumdur ki, Çin hazırda dünyanın nəhəng ixracatçılarındandır. Bu ölkə dünya bazarına ildə 2 trilyon 400 milyard dollar dəyərində məhsul çıxarır və bu səbəbdən yeni nəqliyyat marşrutlarının yaradılması barədə təşəbbüslə çıxış edib. Çinin Avropa ilə mal mübadiləsinin əsas marşrutlarından biri isə "Şərq-Qərb nəqliyyat dəhlizi"dir ki, bu sahədə də ölkəmiz mühüm rol oynayır.

İndi dünya ölkələri həmin marşrut üstündə qızğın siyasi və iqtisadi mübarizəyə başlayıb. Çünki bu yüklərin daşınması hansı ölkədən keçərsə, həmin dövlətlər milyardlarla dollar gəlir əldə edəcək. Prezident İlham Əliyev isə uzaqgörənliklə bu marşrut üçün vaxtında lazımi tədbirlər görüb. Belə ki, bizim nəhəng Xəzər Dəniz Donanmamız var. Donanmanın tərkibində Xəzərin şərq sahilindən qərb sahilinə yük daşımaq üçün bərə gəmilərimiz kifayət qədərdir. İkincisi, Ələt Beynəlxalq Ticarət Limanında nəhəng gəmilərin yan alaraq yükünü doldurub-boşaltmaq üçün hər cür şərait yaradılıb. Üçüncüsü isə, bu yüklərin Avropaya daşınması üçün Bakı-Tbilisi-Qars dəmir yolu çəkilib. Bu yolun da çəkilməsinin təşəbbüsçüsü Prezident İlham Əliyevdir. Üstəlik, maliyyələşdirilməsini Azərbaycan dövləti həyata keçirib.

Ölkələr arasında gedən rəqabətdə siyasi amillər deyil, iqtisadi amillər əsas rol oynayacaq. Bu səbəbdən ölkəmizin həmin rəqabətdən üstün çıxacağına şübhə etmirik. Belə ki, Çinlə Türkiyə arasında yükdaşımaların müddəti bir aydan 12 günə enib. Sözsüz ki, daşınmanın belə qısalmasında Azərbaycanın vaxtında icra etdiyi nəhəng infrastruktur layihələri mühüm əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin uzaqgörənliyi sayəsində ölkəmiz Şərqlə Qərb, Şimalla Cənub nəqliyyat dəhlizinin qovşağına çevrilib. Ölkəmiz mühüm infrastruktur layihələrini rəqiblərimizdən öncə yaratdığı üçün böyük üstünlüyə sahibdir. Təkcə Bakı-Tbilisi-Qars dəmir yolu dünyanın nəqliyyat xəritəsini yenidən tərtib edib.

Dövlət başçısı ölkəmizdə həyata keçirilən iri tranzit layihələrini yüksək dəyərləndirərək demişdir: "Bütün bu layihələr arasında Bakı-Tbilisi-Qars dəmir yolunu mən xüsusi vurğulamaq istəyirəm. Çünki bu, bir neçə səbəbə görə, doğrudan da, strateji obyektdir, strateji infrastrukturdur... Eyni zamanda biz İrandan da Avropa istiqamətinə Azərbaycan üzərindən yükləri gözləyirik. Bildiyiniz kimi, "Şimal-Cənub nəqliyyat dəhlizi"ndə də Azərbaycan çox fəal iştirak edir. Biz öz ərazimizdə bu dəhlizlə bağlı bütün işləri başa vurmuşuq. Ona görə bütün bu addımların nəticəsində Azərbaycan - açıq dənizlərə çıxışı olmayan bir ölkə beynəlxalq, yəni Avrasiya nəqliyyat mərkəzlərinin birinə çevrilib. Əminəm ki, növbəti illərdə artıq icra edilmiş layihələrin və yeni layihələrin icrası nəticəsində Azərbaycan üzərindən yükdaşımaların həcmi artacaq".

***Rüstəm KAMAL***

# Göygöl və Maralgölə körpə forel balıqları buraxılıb

***Ölkənin təbii su hövzələrində balıq populyasiyasının artırılması, təbii su hövzələrinin zənginləşdirilməsi və ekosistemin qorunması məqsədilə təbii sututarlarına balıq körpələrinin növbəti buraxılışı Göygöl Milli Parkının ərazisində keçirilib.***

Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəis əvəzi Firuddin Əliyev bildirib ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, "Azforel" MMC-nin rəhbərliyinin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə körpə forel balıqları Göygöl və Maralgölə buraxılıb. Körpə balıqların göllərə buraxılışı ictimaiyyət nümayəndələri tərəfindən böyük maraqla qarşılanıb.

Balıq ehtiyatlarının artırılması və qorunmasının vacibliyinin təşviqi məqsədilə körpə balıqların təbii su hövzələrinə buraxılışı sentyabrın sonunadək davam edəcək.

Xidmət rəsmisi bütün balıq yetişdirən müəssisələri bu kimi aksiyalarda yaxından iştirak etməyə, ölkədə balıq ehtiyatlarının artırılmasına töhfə verməyə çağırıb.

# Aral dənizi böhranının ətraf mühitə və bölgədə yaşayan milyonlarla insanın yaşayışına dağıdıcı təsiri azaldılmalıdır

***Türkmənistanda Aral dənizi fəlakətinin ətraf bölgələrdəki yaşayış mühitinə təsirini öyrənmək üçün Elmi-Klinik Mərkəz yaradılacaq. Mərkəzin vəzifələrinə Aral dənizi böhranının nəticələrinin mənfi təsirinin minimuma endirilməsi və bununla əlaqəli xəstəliklərin qarşısının alınması məsələləri daxil ediləcək.***

"ORIENT" portalı xəbər verir ki, Prezident Qurbanqulu Berdiməhəmmədov bunu Aşqabad yaxınlığında, Ak Buğday mahalının Bağabat kəndində tikilməkdə olan sanatoriyaya baş çəkərkən söyləyib.

Virusologiya, Bakteriologiya və Epidemiologiya Elmi-Klinik Mərkəzinin sanatoriyanın tikildiyi həmin Axal rayonunda yerləşdirilməsi planlaşdırılır.

Aral dənizi faciəsi müasir tarixdə ən böyük qlobal ekoloji fəlakətlərdən biridir. Bu, Orta Asiyanın 62 milyon əhalisinə təsir edərək bölgənin davamlı inkişafını, sağlamlığını, genefondunu və orada yaşayan insanların gələcəyini təhdid edir. Dənizin qurumasının birbaşa nəticəsi təkcə Orta Asiyada deyil, digər bölgələrdə də hiss olunan iqlim dəyişikliyinə çevrilib. Böhran zonası birbaşa Türkmənistan, Qazaxıstan və Özbəkistan ərazilərini, dolayısı ilə Tacikistan və Qırğızıstan ərazilərini əhatə edir.

Aral dənizinin açıq hissəsində 5.5 milyon hektar ərazisi olan yeni bir duz səhrası meydana gəlib. İldə 90 gündən çox müddət ərzində onun üzərini bürüyən toz fırtınaları hər il atmosferə 100 milyon tondan çox toz və zəhərli duz daşıyır.

Beynəlxalq mütəxəssislərin fikrincə, Aral bölgəsindən zəhərli duzlar Antarktida sahillərində, Qrenlandiya buzlaqlarında, Norveç meşələrində və dünyanın digər yerlərində aşkar olunub.

İndiki dövrün ən vacib vəzifəsi Aral dənizi böhranının ətraf mühitə və bölgədə yaşayan milyonlarla insanın yaşayışına dağıdıcı təsirini azaltmaqdır.

# Dənizçilər üçün təkmilləşdirmə və ixtisasartırma kursları keçirilir

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) strukturuna daxil olan Xəzər Dəniz Neft Donanması və Dəniz Nəqliyyatı Donanmasının əməkdaşları üçün Azərbaycan Dövlət Dəniz Akademiyasında təkmilləşdirmə və ixtisasartırma kursları keçirilir.***

Kurslar "Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbəçəkməyə dair" (DHDNÇ-78) Beynəlxalq Konvensiyanın tələblərinə uyğun təşkil edilir. Tədrisi ASCO-nun aparıcı mütəxəssisləri və Akademiyanın "Dəniz naviqasiyası", "Gəmi elektroavtomatikası" və "Gəmi energetik qurğuları" kafedrasının müəllimləri aparır.

"Gəmi sürücülərinin təkmilləşdirmə" və "Gəmi sürücülərinin ixtisasartırma" kurslarının məqsədi bu sahədə tətbiq olunan yeni naviqasiya metodları və avadanlıqları barədə nəzəri məlumat verməklə yanaşı, həmin yenilikləri misallar üzərində dinləyicilərin diqqətinə çatdırmaqdan ibarətdir.

ASCO-nun sifarişi ilə inşa olunaraq istismara verilən yeni gəmilərin müasir maşın və mexanizmlərinin iş prinsipinin öyrənilməsi, bu gəmilərin istismarı üzrə bilik və bacarıqların izah olunması gəmi mexanikləri üçün təşkil olunmuş kursların əsas predmetini təşkil edir. Bu kurslarda həmçinin dinləyicilər perspektiv maşın və mexanizmlərlə də nəzəri tanış olmaq imkanının əldə edir.

"Gəmi elektrik mexaniklərinin təkmilləşdirmə" kurslarını dinləyənlər üçün Beynəlxalq Konvensiyaya 2010-cu ildə edilmiş Manila dəyişiklikləri nəzərə alınmaqla gəmi elektrik mexaniklərinin (mühəndislərinin) bilik və səriştələrinin təkmilləşdirməsi və eyni adlı Məcəllənin A-III/6 qaydalarının tələbləri izah edilərək onun tətbiqi barədə məlumat verilir.

Kurslar sanitar epidemioloji şərait gözlənilməklə Akademiyanın tədris binalarında, Təlim-Tədis Mərkəzində və Dənizçilik Kollecinin binasında təşkil edilib.

***Musa ƏLİYEV***

# Xəzər dənizində yerləşən limanların əməkdaşlıq perspektivləri barədə müzakirələr aparılıb

***Sentyabrın 14-də İran İslam Respublikasının Limanlar və Dənizçilik Təşkilatının təşəbbüsü ilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Dəniz Agentliyi, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC arasında üçtərəfli videokonfrans formatında iclas keçirilib.***



QSC-dən bildirilib ki, İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvinin iştirak etdiyi iclasa "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı"nın baş direktorunun baş müşaviri Babək Məmmədov və digər əməkdaşlar da qatılıblar. Görüş zamanı "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC ilə İranın Xəzər dənizində yerləşən limanlarının əməkdaşlıq perspektivləri, o cümlədən ənənəvi olan sərnişindaşıma, Xəzər hövzəsində kruiz səfərlərinin təşkil olunması və iki ölkə arasında dəniz nəqliyyatı ilə əməkdaşlığa təkan verəcək məsələlər barədə müzakirələr aparılıb.

Seyid Abbas Musəvi və ölkənin Limanlar və Dənizçilik Təşkilatının tranzit, logistika və müqavilələr üzrə baş idarəsinin direktoru Xosrov Sarai qeyd ediblər ki, Xəzər dənizi dostluq və əməkdaşlıq dənizidir. Bildirilib ki, İran və Azərbaycan vacib mədəni və tarixi ortaqlıqlara sahib ölkələrdir.

Müzakirələr ümumi maraq doğuran məqamlar ətrafında davam etdirilib.

# Milyonlarla barrel neft saxlaya bilən onlarla super tanker icarəyə götürülüb

***Neft treyder şirkətləri anbarların doluluq nisbətinin artacağı ehtimalı ilə depolama qabiliyyətlərini artırmaq üçün nəhəng tankerləri icarəyə götürürlər.***

Treyderlər əlavə ehtiyatları saxlamaq üçün nəhəng tanker şirkətləri ilə icarə müqavilələri imzalayır, koronavirus hadisələrinin yenidən artması ilə meydana gələcəyi ehtimal olunan tədarük bolluğuna hazırlaşırlar.

Mənbələrə görə, dünyanın ikinci ən böyük müstəqil neft ticarəti şirkəti olan "Trafigura Group" son zamanlarda ümumilikdə 24 milyon barrel neft saxlaya bilən onlarla super tanker icarəyə götürüb.

"Bloomberg News"un məlumatında isə təxminən 18 oxşar icarə müqaviləsi imzalanıb. Həmin şirkətlər arasında "Royal Dutch Shell", "Vitol Group" və "LUKoil" da var.

# Terminalın neft yükləmə dayaqları yenidən qurulacaq

***Türkmənbaşı Beynəlxalq Dəniz Limanı "Kenar" terminalının neft yükləmə dayaqlarını yenidən quracaq.***

Dayaqların modernləşdirilməsi limanın müvafiq məhsulların ixracı imkanlarını artıracaq. Buna ehtiyac Türkmənistan neftinə olan tələbat və hasilat səviyyəsinin artması ilə əlaqədardır.

Ölkənin statistika komitəsinin məlumatına görə, 2020-ci ilin yanvar-iyul aylarında "Türkmənneft" dövlət konserni neft hasilatı səviyyəsini əvvəlki ilin eyni dövrü ilə müqayisədə 6,7 faiz artırıb.

Qeyd edək ki, bu ilin yanvar-avqust aylarında ölkə Rusiyaya 1,47 milyon ton "qara qızıl" ixrac edib.

***İlahə Əhmədova***

# Ermənistanın işğal etdiyi ərazilərdə həyata keçirdiyi ekoloji terror regionun ətraf mühitinə ciddi təhlükə yaradır

***Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi birgə bəyanat yayıblar. Bəyanatda deyilir:***

Təcavüzkar Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində və transsərhəd səviyyədə su ehtiyatlarının mühafizəsi və idarəçiliyi ilə bağlı beynəlxalq hüququn bütün prinsiplərini pozmaqda davam edir. Ermənistan tərəfindən işğal altında saxlanılan Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlarımızda təbiətə qarşı düşmən münasibət və ekoloji terror regionun ətraf mühitinə ciddi təhlükə yaradır. Ermənistan tərəfindən transsərhəd çayların ağır formada çirkləndirilməsi nəticəsində sözügedən çaylarda canlı aləmin yaşayışı üçün böyük təhlükə yaranıb. Bununla yanaşı, işğal olunmuş ərazilərdə su anbarlarından istifadə qeyri-mümkün olub və texniki xidmət göstərilmədiyindən ətraf ərazilərdə yaşayan əhali üçün potensial təhlükə mənbəyinə çevrilib.

Ermənistanın BMT-nin "Sərhəddən keçən su axınlarının və beynəlxalq göllərin mühafizəsi və istifadəsi üzrə" Konvensiyaya qoşulmaması sərhədlərarası su problemlərinin beynəlxalq normalar çərçivəsində həllini mümkünsüz edir. Ermənistan silahlı qüvvələrinin sözügedən regiondan dərhal çıxarılması, müstəqil mühəndis və hidroloqlar tərəfindən yerində təhqiqat aparılmasının təmin edilməsi tələbini özündə əks etdirən Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul edilmiş Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin qəsdən sudan məhrum edilməsi ilə bağlı 2016-cı ildə qəbul edilən 2085 saylı qətnamə icra edilməyib. Əksinə, Ermənistan bu istiqamətdə fəaliyyəti daha da genişləndirib. Son günlər Ermənistanın Tavuş rayonunun Dovex kəndindən keçərək Qazax rayonunun Kəmərli kəndindəki su anbarına tökülən İncəsu çayının qarşısının alınması yerli əhalini sudan məhrum edib.

Beynəlxalq hüquq prinsiplərinin və insan hüquqlarının ciddi pozulması halı olan bu vəziyyət, eyni zamanda, beynəlxalq səviyyədə qəbul edilmiş sənədlər, o cümlədən BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri və İqlim dəyişmələri üzrə Paris Sazişindən irəli gələn öhdəliklərin yerinə yetirilməsində ciddi çətinliklər yaradır.

Ermənistan rəhbərliyinin son zamanlar nümayiş etdirdiyi açıq təxribatçı fəaliyyətə ekoloji terror əməllərinin də əlavə olunması bu təcavüzkar ölkənin beynəlxalq hüquq və fundamental insan haqlarını kobud şəkildə pozmaqla yanaşı, bölgədə sülh və təhlükəsizliyə ciddi təhdid olaraq qalmaqda davam etdiyini göstərir.

Beynəlxalq ictimaiyyəti Ermənistanın qanunsuz fəaliyyətini sərt şəkildə qınamağa və işğalçı ölkənin bu kimi qeyri-qanuni əməllərinin qarşısının alınması üçün təxirəsalınmaz tədbirlər görməyə çağırırıq.

# Şərqi Aralıq dənizinə aidiyyəti olmayan ölkələr Türkiyəni susdurmaq üçün çəkici eyni zindana vururlar

***Aralıq dənizinin şərq hissəsi son aylaradək heç vaxt gərginlik ocağı olmamışdı. Sahilyanı ölkələr arasında dənizdə hansısa münaqişə yaşanmamışdı. İndisə Şərqi Aralıq dənizi regionu son dərəcə gərgin vəziyyətin şahididir. Gərginlik, ilk növbədə, Yunanıstanla Türkiyə arasında müşahidə edilir. Əslində isə Yunanıstan bu prosesdə daha çox alət rolunu oynayır. Məqsəd Türkiyəni Aralıq dənizindən vurub çıxarmaq və ölkəni öz sahilində "həbs etmək"dir: elə bil ki, Türkiyənin dənizlə heç bir əlaqəsi yoxdur.***

2000-ci illərdə burada geoloji kəşfiyyat nəticəsində karbohidrogen ehtiyatlarının mövcudluğu barədə məlumat əldə edildikdən sonra region diqqət mərkəzinə düşdü. Burada ilk böyük təbii qaz yatağı İsrailin müstəsna iqtisadi zonasında, Hayfa şəhərindən təxminən 90 kilometr aralıda aşkarlandı. Yataqda 280 milyard kubmetr təbii qaz olduğu təxmin edilir. Ardınca başqa yataqlar da kəşf olundu.

2010-cu ilin məlumatına görə, Şərqi Aralıq dənizinin təkcə Kipr, Livan, Suriya və İsrail arasında Levant hövzəsi adlanan hissəsində 1,7 milyard barel neft və 3,45 trilyon kubmetr təbii qaz olduğu təxmin edilir. Bu məlumat sahilyanı ölkələrin iştahasını əməlli-başlı qabartdı. Hamı bu böyük kökədən mümkün qədər çox pay götürmək üçün yarışa girdi. Beləcə, Şərqi Aralıq dənizinin əhəmiyyəti özünü daha bariz şəkildə göstərməyə başladı, qonşu ölkələrin bir-biri ilə problemləri və müstəsna iqtisadi zonaların sərhədləri barədə fikir ayrılıqları ortaya çıxdı.

Təbii ki, belə bir mürəkkəb şəraitdə sahilyanı ölkələrin bir araya gəlib problemləri həll etməkdən başqa yolu olmamalı idi. Bir sıra ölkələr, ilk növbədə, Yunanıstan tamamilə fərqli istiqamət götürdü: Afinanın məqsədi Avropa İttifaqı (Aİ) ölkələrini arxasına alaraq Türkiyəni Şərqi Aralıq dənizində karbohidrogen payından məhrum etməkdir. Bu işdə təhrikçi kimi Fransa çıxış edir.

Belə olan təqdirdə Türkiyə ötən ilin noyabrında Liviya legitim hökuməti - paytaxt Trablisdə fəaliyyət göstərən milli barışıq hökuməti ilə dəniz sərhədlərinin müəyyənləşdirilməsi haqqında saziş imzalayıb BMT-yə təqdim etdi. Beləliklə, həm Türkiyənin, həm də Liviyanın Aralıq dənizinin şərqində mövcudluğu qanuniləşdi. Lakin Yunanıstan Aİ üzrə müttəfiqlərinə arxalanaraq bu sazişi tanımaqdan boyun qaçırdı: guya ki, Türkiyə ilə Liviya arasında imzalanmış sənəd beynəlxalq hüquqa ziddir.

Vəziyyətdən çıxış yolu kimi Liviyanın legitim hökumətini devirmək planı işə düşdü, çünki belə olan halda Türkiyə ilə bağlanmış sazişi qüvvədən salmaq və bununla Ankaranın Şərqi Aralıq dənizi ilə bağlı iddialarına son qoymaq mümkün idi. Belə bir cəhd edildi. Yunanıstanın havadarları Liviyanın şərqindən gəlmiş qanunsuz silahlı birləşmələrə hərtərəfli dəstək verdilər. Qiyamçı general Xəlifə Həftərin komandanlıq etdiyi birləşmələr Trablisin ətrafına gəlib çıxmışdı. Elə bir təsəvvür yaranmışdı ki, hökumətin süqutu an məsələsidir. Lakin Türkiyə vəziyyətə gecikmədən müdaxilə etdi, nəticədə Həftərin dəstələri paytaxtdan xeyli uzaqlaşdırıldı və qanuni hökumətin devrilməsinin qarşısı alındı.

Beləliklə, Türkiyə ilə haqq-hesab çəkməyin ən asan yolu əldən çıxdı. Ona görə də Ankaranı "buxovlamaq" üçün mümkün olan bütün vasitələr işə salınır. Bir tərəfdən, Türkiyənin beynəlxalq hüququ pozması təkrar-təkrar iddia olunur, digər tərəfdən isə, hərbi ritorika nəzərə çarpır. Fransa başda olmaqla Şərqi Aralıq dənizinə aidiyyəti olmayan İspaniya, İtaliya, Portuqaliya, Malta, hətta Birləşmiş Ərəb Əmirlikləri kimi ölkələr fəallaşır, Türkiyəni susdurmaq üçün çəkici eyni zindana vururlar. Gərginliyi azaltmaq üçün sahilyanı ölkələr arasında dialoq qurmağa çağıran ABŞ-ın bu yaxınlarda Kiprə qarşı 33 il əvvəl tətbiq etdiyi silah embarqosunu yumşaltmağı və adanın cənubunu ABŞ-ın İMET hərbi təlim proqramına daxil edilməsini qərarlaşdırması heç də problemin nizamlanmasına xidmət etmir, əksinə, antitürk kampaniyasının qızışmasına zəmin yaradır, regionda sülhün və sabitliyin bərqərar olmasına töhfə vermir. Bu azmış kimi, Vaşinqton cari ayın 12-də yunan Kipri ilə adanın cənubunda Quru, Dəniz və Liman Təhlükəsizliyi Mərkəzi adlı təlim mərkəzinin yaradılmasını nəzərdə tutan anlaşma memorandumu imzalamışdır. Sənəd Kiprin türk icmasının maraqlarını nəzərə almır. Başqa sözlə, ABŞ adanın iki icması arasında qüvvələr nisbətini pozur ki, bu da Kiprdə danışıqlar prosesinə zərbə vurur.

Ankaranın cərəyan edən hadisələri münasibəti birmənalıdır: Türkiyə nəyin bahasına olursa-olsun, Şərqi Aralıq dənizində milli maraqlarını qoruyub saxlamaqda israrlıdır, kənardan təzyiqlərə boyun əymək fikrində deyil. Eyni zamanda Türkiyə regionda gərginliyin azaldılması naminə Yunanıstanla dialoqa girməyə hazırdır. Qarşı tərəf də ara-sıra dialoqdan söz açır. Bəs elə isə, niyə dialoq baş tutmur? Məsələ burasındadır ki, Yunanıstan danışıqlar masası arxasında oturmaqdan qabaq ilkin şərtlər irəli sürür. Bu şərtlərin məğzi Türkiyənin Şərqi Aralıq dənizindən tamamilə çəkilməsi və hər cür "təxribat"a son qoymasından ibarətdir. Amma Türkiyə də ilkin şərtlər irəli sürə bilər. Özü də Afinanın regionda Ankaraya münasibətdə yaratdığı narahatlıq kifayət qədər əsaslıdır. Belə ki, Yunanıstan 1947-ci il tarixli Paris sazişini pozaraq Türkiyə sahilinin yaxınlığındakı adaları hərbiləşdirir, burada silahlar və hərbi qüvvə yerləşdirir. Belə bir şəraitdə dialoqun baş tutacağını gözləmək çətindir.

Digər tərəfdən, Afina müdafiə xərclərini üç dəfə artırmağı və qarşıdakı doqquz il ərzində 10 milyard avro dəyərində silah almağı planlaşdırır. Yunanıstanın əsas silah təchizatçısının Fransa olacağı gözlənilir. Afina və Paris bu barədə artıq razılaşma əldə etmişlər. Yunanıstan hökuməti yeni hərbi təyyarələr, helikopterlər və freqatlar almağı planlaşdırır. Hərçənd ölkənin iqtisadi vəziyyəti heç də ürəkaçan deyil. Büdcə kəsiri artmaqda davam edir. Yerli mütəxəssislər on ildən çoxdur ölkəni çənginə almış iqtisadi tənəzzülün bundan sonra da davam edəcəyini proqnozlaşdırırlar.

Şərqi Aralıq dənizində Yunanıstan-Türkiyə qarşıdurması hələ də davam edir. Vəziyyətdən çıxış yolu görünmür. Antitürk kampaniyasını qızışdıranlar növbəti addım kimi cari ayın 24-25-də keçirilməsi nəzərdə tutulan Aİ sammitində Türkiyəyə qarşı sanksiyalar tətbiq edilməsinə nail olmaq niyyətindədirlər.

***Allahverdi MEHDİYEV***

# Müsəlman tacirləri Vasko da Qamanın dəniz qulduruna oxşadığını iddia edirdilər

***Kolumbun coğrafi kəşflərindən sonra Portuqaliya da sərvət əldə etmək üçün yeni torpaqlar axtarışına başladı. Portuqallar Afrikanın cənubundan dəniz yolu ilə Hindistana çatmaq planı hazırladılar. Bu məqsədlə Portuqaliya kralı 1497-ci ildə 4 gəmi, 170 nəfərlik heyətlə Lissabondan Hindistana ekspedisiya göndərdi. Ekspedisiyaya rəhbərliyi 28 yaşlı gənc dənizçi Manuel Vasko da Qamaya tapşırdılar.***



Vasko da Qama Portuqaliyada zadəgan ailəsində anadan olmuşdu. Yaxşı təhsil almış və dəniz döyüşlərində iştirak etmiş Vasko özünü cəsur dənizçi kimi göstərmişdi. Qızıl yüklənmiş Portuqaliya gəmisini fransızların əsarətindən azad edəndən sonra isə bütün Portuqaliya onu tanıdı.

Ekspedisiya üzvləri dörd ay üzdükdən sonra Afrikanın cənub sahillərinə çıxdılar. Onlar Ümid burnundan Hind okeanına keçərək daha 3 ay Afrikanın şərq sahilləri ilə irəlilədilər.

Nəhayət, 1498-ci il mayın 20-də Portuqaliya gəmiləri Hindistanın Kəlküttə şəhərinə yaxınlaşıb lövbər saldılar. Hindistanla ticarəti öz əllərində saxlayan ərəb tacirləri avropalıların bura gəlişindən narahat oldular. Müsəlman tacirləri hər yerdə Vasko da Qamanın dəniz qulduruna oxşadığını deyirdilər. Onun gətirdiyi hədiyyələrə – parçalara, şlyapalara, mərcan muncuqlara lağ edirdilər. Avropalılar gətirdikləri malları çoxlu ədviyyata – darçın, mixək və qara istiota dəyişib tələsik şəhəri tərk etdilər.

1499-cu ilin sentyabrında Vasko da Qama Portuqaliyaya qayıtdı. Ekspedisiya heyətinin yalnız üçdə biri qayıtmışdı. Amma qazanc çox idi. Portuqaliyalılar gətirdikləri ədviyyatı sataraq ekspedisiyaya xərclədiklərindən dəfələrlə çox qazanc götürdülər. Beləliklə, tapşırıq yerinə yetirildi: Hindistana Afrikanın cənubundan su yolu tapıldı.

Vasko da Qama ikinci dəfə Hindistana 1502-ci ildə 20 gəmidən ibarət güclü donanma ilə yollandı. Portuqallar odlu silahdan istifadə edərək Afrikanın Hind okeanı sahillərini, Ərəbistan və Hindistan yarımadalarını müstəmləkəyə çevirdilər.

Onlar şəhərlərin əhalisini qırır, vəhşicəsinə çapıb-talayırdılar. Kəlküttə şəhərini top atəşinə tutaraq darmadağın etdilər. Ədviyyatı, qızılı, gümüşü, daş-qaşı silah gücünə alıb gəmilərə doldurdular. Beləliklə, böyük coğrafi kəşflər müstəmləkə işğallarının başlanmasına zəmin yaratdı.

1524-cü ildə Vasko da Qama Hindistana vitse-kral təyin olunsa da, ölümü gələcək müstəmləkə planlarını həyata keçirməyə mane oldu.

# Müsəlmanların adət və ənənələrini də dərindən öyrənən ingilis səyyahı

***Britaniyalı səyyah, yazıçı, şair, tərcüməçi, etnoqraf, qılıncoynatma ustası və diplomat Richard Francis Burton 1821-ci il martın 19-da anadan olmuşdur.***



Asiya və Afrika ilə bağlı araşdırmaları ilə yanaşı, müxtəlif dil və mədəniyyətlər haqqında bilikləri Richard Francis Burtonu məşhurlaşdırmışdır. Deyilənə görə, Burton hər biri fərqli dil ailəsinə məxsus olan 29 dil bilirmiş.

Burtonu ən çox məşhurlaşdıran onun Məkkəyə, John Henning Speke ilə Nil çayının mənsəbini axtarmaq məqsədilə Şərqi Afrikaya səyahət etməsi, Tanqanika gölünü kəşf etməsi və "Min bir gecə" nağılını ingilis dilinə çevirməsi olmuşdur.

R. Burton uşaqlıqda tez-tez yaşadığı yeri dəyişməli olur, valideynləri ilə birlikdə İngiltərə, İtaliya və Fransada yaşayır. Burtonun sonradan səyahətə marağının artmasında yəqin ki, bu məsələnin də rolu az olmayıb. 1842-ci ilin iyun ayında Burton Bombeyə gedir, lakin Hindistanda müharibə artıq qurtarmışdı. Hindistanda olarkən Burton vaxtının çox hissəsini oranın mədəniyyətini və dillərini araşdırmağa sərf edir. O, marathi, hindi, fars, ərəb və qucarat dillərini yüksək səviyyədə bilirmiş.

Hindistanda keçirtdiyi 7 ildə Burton müsəlmanların adət və ənənələrini də dərindən öyrənir.

Burton Həccə gedən ilk avropalı deyildi. Lakin onun ziyarəti dəqiq sənədləşdirilir. 1855-ci ildə Burtonun "Əl-Mədinəyə və Məkkəyə Həcc" kitabı nəşr olunur.

Kral Coğrafiya Cəmiyyətinin (The Royal Geographical Society) təşəbbüsü ilə Tanqanika gölünün kəşf edildiyi Şərqi Afrikaya ekspedisiyaya rəhbərlik edir.

Kral Coğrafiya Cəmiyyətinin üzvü Burton müxtəlif vaxtlarda Fernando Po, Dəməşq və Triestdə ingilis konsulu kimi fəaliyyət göstərir.

R. Burton 1890-cı ildə vəfat etmişdir.

# 65 milyon il bundan əvvəl meteoritin düşməsi nəticəsində yaranan ən uzun yeraltı çay

***Meksikanın Kintana-Roo ştatında, Yukatan yarımadasında, Tulum şəhəri yaxınlığında yeraltı cəngəllik mağaraları labirintində Sak-Aktun (Sac Actun) çayı axır. O, dünyanın ən uzun yeraltı çayıdır. Bundan əlavə, Sak-Aktun ölçüsünə görə dünyanın ikinci mağara sistemi sayılır.***



Sak-Aktun Maya dilində "ağ mağara" mənasını verir. Meksikanın ən məşhur yeraltı çayı 1989-cu ildə 2 amerikalı akvalanqçı-speleoloq tərəfindən aşkarlanıb. O, təxminən 65 milyon il bundan əvvəl meteoritin düşməsi nəticəsində yaranıb.

Həmin vaxt yer səthində çox sayda iri çatlar əmələ gəlib və sonradan onlar yağış suları ilə dolub. Hazırda çayın alimlər tərəfindən aşkarlanan uzunluğu 317,5 kilometrdir ki, bunun da 311,7 kilometri yerin altından axır.

Sak-Aktun tək Yukatan yarımadasının deyil, bütün Meksikanın görməli yerlərindən biridir. Turistlər burada nəinki stalaktitlərə və stalaqmitlərə baxa, həmçinin bu yerin gözəlliklərini tam görmək üçün suyun dərinliklərinə də enə bilərlər.

Bu yeraltı çayın suları çoxsaylı mineralla zəngindir. Çayda suyun hərarəti 23-24 dərəcə olur və kristal şəffaflığa malikdir. Təbiətin bu gözəl möcüzəsi bir çox canlının yaşayış yeridir. Burada nəhəng dəniz xərçənginə, naqqa balığına, şirin su xərçənginə və yarasaların bir neçə növünə rast gəlmək olar.

# Dünyanın ən uzun coğrafi adı

***Dünyanın ən uzun coğrafi adı (toponim) - Yeni Zelandiyada Taumata təpəsinin adıdır. Sakit okeanının sahillərində, Şimali adada, Poranqaxau şəhərinin yaxınlığında yerləşən təpənin adı nə az-nə çox 85 hərfdən ibarətdir: Taumatawhakatangihangakoauauotamateaturipukakapikimaungahoronukupokaiwhenuakitanatahu.***

Yerli sakinlər təpəyə qısaca Taumata deyirlər. Maori mənşəli sözdür. 40 hecadan ibarətdir.

Rus transkripsiyasında təpənin adı 82 hərflə qeyd olunur. Rus dilində tərcüməsi belədir: "Böyük dizləri olan adam, torpaq araşdırıcısı Tamateyin sevdikləri və fleyta çalmaq üçün dırmandığı təpənin zirvəsi". Maori yerli əhalisinin dilində bu yerin adı yalnız 300 metrlik təpə kimi ifadə edilir.

Bir sözlə, sözün mənası bir az gülünc səslənsə də tarixi əhəmiyyət daşıyır. Belə ki, Tamatey-Pokai-Inui (Tamatea-Pokai-Whenua) əfsanəvi Maui qəbiləsindən və Kaunquninin atası olub.

O, Yeni Zelandiyaya Polineziyadan takitimo qayığı ilə gəlib. Şimali adanın şimal-şərq sahilində uzun bir sahil yolçuluğundan sonra Ahuriri (Napier) torpağına ayaq basır və adanın şimal-şərq, orta hissəsini gəzir. Əfsanəyə görə, Maorinin qayığı Cənub Körfəzin Malboro ərazisində təpəyə dönür. Özü isə Taupo gölünün şimal sahillərinin yaxınlığında, Vayikato çayının Huka Şəlaləsində ölür. Buna görə də, Yeni Zelandiyadada Tamateyin adı ilə əlaqəli çox sayda yer var.

# Gəmiçiliyə də yararlı göl

***Balxaş gölü planetimizin suyu həm şirin, həm duzlu olan yeganə gölüdür. Cənub-Şərqi Asiyada, Qazaxıstan ərazisində yerləşir. Gölün həvzəsi 413,000 km²dir, uzunluğu 614 km, eni isə 3,5 ilə 44 km arasında dəyişir. Maksimal dərinliyi 26, dənizdən yüksəkliyi 341,4 metrdir.***

Balxaş gölü iki hissəyə ayrılır. Qərb hissəsi dayaz və enlidir, sahilləri çox parçalanıb. Suyu şirindir. Şərq hissəsi isə nisbətən dar, sahilləri az girintili-çıxıntılıdır. Burada su bir qədər şorandır.

Balxaş gölünün şimal sahilləri hündür və sıldırımlı, cənub sahilləri isə alçaq və hamardır. Gölə İli, Qaratal, Aksu, Lepsa və s. çaylar tökülür.

Səhra iqlimi var. Orta temperatur iyulda təqribən 24°S, yanvarda isə -8°S-dir. Noyabrdan aprelin ortalarınadək donmuş olur. Suyun temperaturu dekabrda 0°S, iyulda 28°S olur. İllik yağıntının miqdarı təqribən 180 mm-dir.

Balxaş gölünün flora və faunası müxtəlifdir. Göldə təxminən 20 növ balıq yaşayır. Təəccüblü deyil ki, qədim qazaxlar gölün adını "Balık as" (balıq-yemək) adlandırıblar. Əsasən suf, marinka və xanı balığı ilə məşhurdur. Çəki balığı, Aral nərəsi və s. yetişdirilir.

Gölün ətrafında təxminən 120 növ su quşu qeydə alınıb, onlardan 12-si "Qırmızı kitab"a düşüb.

Quruda və suda böyüyən 60-a qədər bitki növü var. Balxaş bölgəsi çox sayda nadir və bənzərsiz bitki və heyvan növü ilə fərqlənir.

Balxaş gölü gəmiçiliyə də yararlıdır. Burılbaytal və Burli-Tobe mühüm əhəmiyyət kəsb edən limanlarıdır. Balxaş şəhərindəki mədən-metallurgiya kombinatında gölün suyundan istifadə edilir.

Geoloqlar və geomorfoloqlar gölün 35.000 ildən çox mövcud olduğunu müəyyənləşdiriblər. Balxaş gölü uzun illər Çinin hakimiyyəti altında olub, bu ölkənin cənub-şərqdəki ən uc sərhədini təşkil edib. Lakin 1864-cü ildə çinlilərin Haqsız Anlaşma hesab etdikləri razılaşma ilə Balxaş gölü Rusiyaya buraxılıb. SSRİ-nin dağılması ilə göl rəsmi olaraq Qazaxıstan sərhədləri içində qalıb.

Rus coğrafiyaşünası Lev Semyonoviç Berq Balxaş gölünün tədqiqinə böyük töhfə verib.

# Karib dənizində yerləşən ada dövləti

***Antiqua və Barbuda Karib dənizində bir ada dövlətdir. Adı ölkənin ən böyük iki adasının şərəfinə qoyulub. Antigua - "qədim" və Barbuda - "saqqallı" ispan sözlərindən əmələ gəlib. Paytaxtı Sent-Cons şəhəridir.***

Antiqua və Barbudanın sahəsi 443 kvadratkilometrdir, əhalisi isə 92.000 min nəfərdir. Əhali əsasən qaradərilidir.

Rəsmi dil – ingilis dilidir. İnzibati cəhətdən 6 icmaya və 2 qəyyumluq altında olan əraziyə (Barbuda, Redonda) bölünür. Antiqua və Barbuda BMT-nin (1981) və ADT-nin (1981) üzvüdür.

Yerli xalqlar e.ə. 2400-cü illərdə burada məskunlaşmışdı. Xristofor Kolumb 1493-cü ildəki ikinci səyahətində adaya çıxmış və adanı Antiqua adlandırmışdır.

İngilislər 1667-ci ildə Antiquaya İrlandiyalı katolik kölələr gətirərək buranı müstəmləkə etdilər. Köləlik sistemi 1834-cü ildə aradan götürüldü. Antiqua və Barbuda 1981-ci ildə, Kanada, Şotlandiya, İngiltərə, Avstraliya, Qaller, Yeni Zellandiya kimi İngilis Millətlər Birliyinə bağlı bir müstəqil ölkə oldu.

Antiqua təpəli mərcan adasıdır. Sahil xətti çox girintili-çıxıntılıdır. Təbii liman və körfəzləri (Sent-Cons, Parem, İnqliş-Harbor və s.) var.

Antiqua adasının ərazisində onu arxipelaqın digər adalarından fərqləndirən meşə yoxdur. Yalnız Barbuda adasının ərazisi meşələrlə örtülüdür.

Adaların faunası zəifdir. Barbuda adasında çox sayda quş, kərtənkələ, tısbağası qorunub saxlanılmışdır. Tropik meşələrdə maral, qaban, laqunda su quşlarına rast gəlinir. Ərazisində Nelsons-Dokyard Milli Parkı və Dayamond-Rif Dəniz Parkı var.

Adanın ərazisində çaylar və göllər yoxdur.

# Suyu heç vaxt qurumayan "Afrika mirvarisi"




***Tanqanika (bantu dilli qəbilələrin dilindən tərcümədə "balıqla bol su" deməkdir) Afrikanın ən məşhur gölüdür. Dəniz səviyyəsindən 773 metr hündürlükdə yerləşən "Afrika mirvarisi" planetimizin bütün şirin su göllərinin ən böyüyüdür.***

O, şimaldan cənuba 673 kilometr uzanır ki, bu da Baykal gölünə nisbətən 40 kilometr çoxdur. Gölün eni orta hesabla 72 kilometr, orta dərinliyi isə 570 metrdir. Tanqanika gölünün maksimal dərinliyi 1470 metrə çatır və o, bu göstəriciyə görə dünyada ikinci yeri tutur. Şirin su həcminə görə (18,9 min kub kilometr) də ikinci olan Tanqanikanın səthi 32,9 min kvadratkilometrdir.

Tanqanika gölünü 1858-ci ildə ingilis tədqiqatçıları Riçard Berton (1821-1890) və Con Spik (1827-1864) kəşf ediblər.

Böyük su həvzəsi şimaldan cənub-qərbə doğru uzanır və dörd ölkə - Burundi, Konqo Demokratik Respublikası, Zambiya və Tanzaniya ilə əhatə olunur. Atlantik okeanı ilə əlaqə Lukuqa və Konqo çayları vasitəsi ilə həyata keçirilir. Mütəxəssislər su həvzəsinin yaşının 10-12 milyon il olduğunu güman edirlər. Viktoriya gölündən fərqli olaraq, o, heç vaxt qurumayıb. Bunun səbəbi şirin su həvzəsində dünyanın heç bir yerində rast gəlməyən unikal təbii mühitdir.

Gölün flora və faunası iki mindən çox heyvan və bitki növü ilə təmsil olunur. ən zəngin şirin su ekosisteminə malik olan Tanqanikada qədim dövrlərdən qalan və yalnız burada rast gəlinən (endemik) 600 heyvan və bitki növü var. Böyük dərinliyi və təbii cərəyanların olmaması hesabına göldə tam həcmli su dövranı yoxdur. Bu, aşağı su laylarında hidrogen sulfidinin yüksək konsentrasiyasına səbəb olur. 200 metr dərinlikdən aşağı "ölü zona" başlayır. Burada oksigen olmadığı üçün heç bir həyat da mövcud deyil.

Lakin suyun səthinə yaxın çox sayda müxtəlif balıq növləri yaşayır. Burada təkcə Tsixlosomlar fəsiləsinə aid 250 növ var ki, onların da 98 faizi endemikdir. Uzunluğu 2,5 santimetrdən 1 metrə qədər dəyişən bu balıqlara sahil xətti boyu suyun 180 metr dərinliyinə qədər rast gəlmək olur. Onlardan bəziləri akvarium balıqları kimi böyük maraq kəsb edir.

Təkrarolunmaz və dəyişkən landşaftı sayəsində "Afrika mirvarisi" materikin bitki və heyvanat aləmi ilə maraqlanan turistlər üçün gözəl məkan sayılır.



# ASCO-nun gəmiləri mütəmadi dezinfeksiya edilir

***Nazirlər Kabinetinin "Azərbaycanda yeni koronavirus xəstəliyinin yayılmasının qarşısının alınmasına dair fəaliyyət planı"nın icrasını təmin etmək məqsədi ilə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) profilaktik tədbirləri davam etdirir.***

Müəyyənləşdirilmiş qrafikə uyğun olaraq növbəti dezinfeksiya işləri "Ağdam", "Dağıstan", "Bərdə", "Akademik Həsən Əliyev", "Abşeron-15", "Ağdərə-7", "Bəstəkar Qara Qarayev", "Merkuri 1", "Professor Gül", "Ullucay" gəmilərində, həmçinin "Bibiheybət" Gəmi Təmiri Zavodunun, Xəzər Dəniz Neft Donanmasının və Dəniz Nəqliyyat Donanmasının yeməkxanalarında aparılıb.

Dezinfeksiya bu sahədə ixtisaslaşmış və müvafiq lisenziyaya malik şirkət tərəfindən həyata keçirilib. Proses ASCO-nun Sosial inkişaf və nəqliyyat şöbəsinin əməkdaşlarının nəzarəti altında yerinə yetirilib.

***Turab Məmmədov***

# YARIZARAFAT, YARIGERÇƏK

**Heç bir canlı, insan qədər özündən uzaqlaşmağa meylli deyil.**

**İnanmadığım adamlar özləri hər addımda sübut edirlər ki, onlara inanmağa dəyməz.**

**Əlçatan yerdə olduğu üçün qırmaq həvəsi gələn hər kəs ən çox qəlbimi qırıb?**

**Xasiyyətim barədə nə deyə bilərəm? Gördüyünüz xasiyyətdir. Üstəlik dilə gətirməklə də qanınızı qaraltmaq istəmirəm.**

**İnsanları görmək getdikcə çətinləşir. Günahlarının içində itib-batırlar.**

**Heç bir yerdə yalan yuxarı başa özü keçmir. Onu keçirirlər. Və yalan harda yuxarı başdadırsa, hətta aşağı başda həqiqəti dilə gətirməyə o qədər də həvəs olmur.**

**Ən qorxulu yerlər səlahiyyətlə qabiliyyətin üst-üstə düşmədiyi yerlərdir.**

**Yaxşı ki, əlimdə sonraya saxlaya bilmədiyim vacib işlər olub. Hər kəsin əlini sıxmamışam.**

**Adamlara yuxarıdan aşağı baxanların yuxarıda nə işi?**

**Probleminizi çox böyütməyin. Yerinizi dar edəcək.**

**İrəli getmək istəyirsənsə, arxaya az boylan.**

**Həmişə ayaq üstə olmaq mümkün deyil. İnsan yorulur. Amma insanın ən güclü vaxtları ayaq üstə olduğu vaxtlardır.**

**Söz verə bilmərəm. Olanım ancaq sözdür.**

**Ürəklə gördüyün hər iş gözəl alınar.**

**Ölmək əlimdən gəlmir. Yaşamalıyam.**

**Çiyinlərə bərabər bölməyəndə ən yüngül yük də adama ağır gəlir.**

**Əvvəlcə valideynlərim, sonra qohum-əqrabam, dost-tanışlarım, iş yoldaşlarım... haqqımda yaxşı fikirdə olublar. Mən də bu qədər adamı məyus etməməyə çalışmışam.**

**Doğrunu dediyim heç bir yerdə arzuolunan adama çevrilmədim.**

**Bütün qorxaqlar yaltaq deyil. Amma bütün yaltaqlar qorxaqdırlar.**

**Yaraşmayan çox şeyi özünə yaraşdıranlar da dəbdən danışırlar.**

**Döyməyə qapı varsa, tənha deyilsən.**

**Bəlkə sən biləsən?! Heç nədən qorxmadıqlarını deyənlər belə hara qaçırlar?**

**Xəyal qırıqlığına uğramamaq üçün xəyal qurmuram.**

**Yaltaqlıq keçicidir? Yaman çoxalıb.**

**Bizimki tutmaz. Bizi tutsalar da.**

**Mənim indiki halımdan çox adam məmnundur. Şadam ki, mənə görə kimlərinsə könlü xoşdur.**

**Zor və hiylə ayrılmaz dostlardır.**

**Qəlbiqaralarla dünya hara çıxsa da, işıqlığa çıxmaz.**

**Anlamaq istəmirsənsə, necə və niyə anladım səni?**

**Döyüşməkdən qorxmuramsa, bu, o demək deyil ki, niyə döyüşdüyümün fərqinə varmadan hamı ilə döyüşüm.**

**Sevdiyinizlə sizin aranıza kimsənin girə bilməməsi üçün hətta həyaya da yer saxlamayın.**

**Nə qədər ucalıqda olmalısan ki, kimsə səni öz səviyyəsinə sala bilməsin.**

**Elə adamların elə şeylərlə ələ alındığını görürəm ki, əlim çox vaxt üzümdə qalır.**

**Üşüdüyü üçün əli çox vaxt başqasının cibində olur?**

**Ədəbiyyat həyata oxşamayanda cansıxıcı, oxşayanda daha cansıxıcı olur.**

**Niyə hər kəsə elə gəlir ki, həqiqət təkcə mənə lazımdır və mənə təkcə həqiqət lazımdır?**

**Mən hələ eləmədiklərimin cəzasını çəkirəm. Belə getsə, elədiklərimin cəzasını yəqin o dünyada çəkəcəyəm.**

***Rasif TAHİROV***

# Mikroplastik hissəciklərin təxminən 70 faizi dəniz mühitinə göllərdən daxil olur



***Bəşəriyyət "plastik epoxa" dövrünü yaşayır. Plastik materiallar uzunömürlülük, yüngüllük və korroziyaya davamlılıq kimi xüsusiyyətlərinə görə geniş istifadə edilir. Bu barədə "Sinxua" informasiya agentliyi məlumat yayıb. Çin tədqiqatçıları tərəfindən aşkarlanmış 5 millimetrdən kiçik diametrli plastik mikrohissəciklərə çayların, göllərin, su anbarlarının çöküntülərində və hətta buzlaqlarda, eləcə də Arktikanın qar örtüklərində rast gəlinir. Tədqiqatın nəticələri göstərir ki, mikroplastik hissəciklərin təxminən 70 faizi dəniz mühitinə göllərdən daxil olur, daha doğrusu, mikroplastik hissəciklər göllərin çöküntülərində əmələ gəlir.***

Çin Elmlər Akademiyası nəzdindəki ətraf mühit və resurslar üzrə Şimal-Qərb İnstitutunun tədqiqatçıları mikroplastik hissəciklərin mənşəyinin, həmçinin onların şirin su çöküntülərinə keçməsinin və yayılmasının sirlərini öyrənməyə çalışırlar.

Alimlər polimerlərin morfoloji xüsusiyyətləri, növləri və mənbələri də daxil olmaqla şirin su çöküntülərində mikroplastik hissəciklərin yığılmasına təsir göstərən bir sıra amilləri nəzərdən keçiriblər. Məlum olub ki, mikroplastik hissəciklərə yoxlanılan çayların, göllərin və su hövzələrinin çöküntülərində daha tez-tez rast gəlinir. Eyni zamanda, müxtəlif bölgələrdə mikroplastik hissəciklərin konsentrasiyalarında aşkar fərq mövcuddur.

Tədqiqatçılar, həmçinin diametri 1 millimetrdən az olan lifli hissəciklərin şirin su çöküntülərində mikroplastik hissəciklərin əsas forması olduğunu, rənglərinin isə əsasən ağ və ya şəffaf olduğunu aşkarlayıblar.

Buna baxmayaraq, tədqiqatçılar mikroplastik hissəciklərin yerdəyişməsi və transformasiyası, həmçinin onların quruda ekosistemə və insan həyatına təsiri ilə bağlı sualların hələ də açıq qaldığını etiraf ediblər. Məsələyə aydınlıq gətirilməsi üçün gələcəkdə əlavə tədqiqatların aparılması tələb olunur.

Qeyd edək ki, sözügedən tədqiqatın nəticələri barədə məqalə "Science of the Total Environment" jurnalında dərc olunub.

# Su haqqında bildikləriniz və daha nələr...

***Amerikalı tədqiqatçıların fikrincə, həddən artıq soyudulmuş su – bir yerdə olan iki mayedir. Onlar maye suyun ölçülməsi tarixində ilk dəfə olaraq adi donma temperaturundan daha aşağı temperaturda ölçmə apardıqdan sonra bu qənaətə gəliblər. Tədqiqatın nəticələri "Science" jurnalında dərc edilib.***

Su kimyəvi maddə kimi axıradək tədqiq edilməyib. Alimlər bəzən onu Yer üzündə ən müəmmalı substansiya adlandırırlar. Məsələ ondadır ki, su digər mayelərə bənzəmir – donanda genişlənir və digər mayelər kimi sıxılmır. Buz halında olanda suda batmır və səthdə üzür. Suyun qaynama temperaturu yüksəkdir və o, yaxşı həlledicidir: üzvi və qeyri-üzvi maddələrin çoxu müxtəlif şəraitdə suda həll olur. Nəhayət, suyun səthi gərilmə əmsalı böyükdür. Bütün bu unikal xüsusiyyətlərinə görə su Yer üzündə həyatın əsasına çevrilib.

Suyun digər bir keyfiyyəti də var – o, çox "həvəssiz" donur. Əgər digər mayelər bərk hala donma başlanan andan tədricən keçirsə, su axıradək "müqavimət" göstərir. İlkin bərkimək üçün suda həmişə nüvənin kristallaşması lazımdır.

ABŞ Energetika Nazirliyinin Sakit Okean Şimal-Qərb Milli Laboratoriyasından olan tədqiqatçılar bu kristal hissəciyin olmayacağı təqdirdə suyun hansı temperaturadək maye halında qalacağını yoxlamağı qərara alıblar.

Məlumdur ki, su buludlarda hətta ən aşağı temperatur zamanı həddən artıq soyumuş damcı kimi ola bilər. Daha yuxarı və soyuq laylardan bu buludlara xırda buz "tozu" düşəndə damcılar dərhal kristallaşır və yerə buz dənəciyi və ya dolu formasında düşür.

Alimlər laboratoriyada nazik buz pərdəsini lazerlə dağıdaraq həddən artıq soyumuş maye su yaradıblar. Sonra ultraqırmızı spektroskopiyanın köməyilə Kelvin şkalası üzrə 135-245 dərəcə intervalında, Selsi üzrə mənfi 138 dərəcədən mənfi 38 dərəcəyədək intervalda suyun dəyişməsinin ən xırda mərhələlərinin hamısını izləyiblər.

Faza hallarını "stop-kadr"larında alimlər görüblər ki, su həddən çox soyudulduqdan sonra sıx maye fazaya kondensasiya edilir ki, bu da adi maye faza ilə yanaşı mövcud olmaqda davam edir. Bu halda temperatur Kelvin şkalasında 190-dan 245-ə artdıqda yüksək sıxlıqlı mayenin payı tezliklə azalmağa başlayır.

Alimlər ilk dəfə olaraq təcrübi şəkildə sübut ediblər ki, həddən çox soyudulmuş su sabit ikifazalı maye halında ola bilər. Fazalar arasında münasibət temperaturdan asılı olaraq dəyişir. Əvvəllər hesab edilirdi ki, həddən artıq soyudulmuş su qaçılmaz olaraq zaman keçdikcə bərk hala keçir.

# Berinq dənizinin ortasında yerləşən kiçik ada okeanda və atmosferdə baş verənləri bir növ qeyd edir

***Şimal Buzlu okeanda qış mövsümündə buzla əhatə olunmuş dəniz sahəsi son 5500 il ərzində minimal olub. Bu nəticəyə ABŞ-ın Restondakı Geoloji Xidmətindən Miriam Consun rəhbərliyi ilə 2018-ci ildə Berinq dənizində ekspedisiyada olmuş bir qrup alim gəlib.***

nat-geo.ru saytı xəbər verir ki, Cons və komandası Berinq dənizində uzaq bir yer olan Müqəddəs Metyu adasında torf qalıqlarını aşkar ediblər. Qismən çürümüş bitkilərin torfla örtülmüş qalıqlarının içərisində oksigen tərkibli üzvi birləşmələr - bölgənin iqlim tarixinin açarı olan sellüloz var idi.

Miriam Consun fikrincə, Berinq dənizinin ortasında yerləşən bu kiçik ada okeanda və atmosferdə baş verənləri bir növ qeyd edir.

Adadakı yağıntının tərkibində iki fərqli oksigen izotopu var: O-18 və O-16. Bu izotopların yağıntıdakı nisbi dəyərləri atmosfer şəraitinə görə dəyişir və bitkilər havadan oksigen aldıqları zaman onlar bu dəyişiklikləri qeyd edir.

Sellülozdakı bu izotopların miqdarını analiz edərək, qrup 5500 il ərzində yağıntı və atmosfer sirkulyasiyasındakı dəyişiklikləri izləyə bilib.

Daha sonra komanda bu oksigen izotoplarının yazılışının dəniz buzunun uzunluğu ilə əlaqəsini müəyyən edib. Məlumdur ki, Berinq dənizindəki buz küləyin istiqamətinin dəyişməsi ilə birbaşa əlaqəlidir. Buna görə tədqiqatçılar 1979-cu ildən 2018-ci ilə qədər olan iqlim şəraitini, bu müddət ərzində sellülozdakı oksigen izotoplarının dəyərlərini və dəniz buzunun peyk müşahidələrini özündə cəmləşdirən kompüter modelləşdirməsini yaradıblar.

Güclü bir cənub küləyi əsəndə və daha az dəniz buzu olduqda nisbi oksigen-18-in miqdarı artırdı. Şimaldan küləklər üstünlük təşkil edərkən və daha çox dəniz buzu olduğu zaman sellülozda daha az oksigen-18 var idi.

Tədqiqatçılar daha sonra minlərlə il ərzində bölgədəki dəniz buzunun böyüməsini və azalmasını izləmək üçün torfdakı oksigen izotoplarından istifadə ediblər. Ən çox yağıntı qış və yaz aylarında olur, buna görə də bu oksigen izotopları yay deyil, fevral-may aylarındakı şəraitə işarə edir.

# Yosun qalıqlarından fayda əldə etmək mümkündür



***Sapvarı yaşıl "Cladophora" yosunundan akvariumların bəzədilməsində tez-tez istifadə edilir. Ümumiyyətlə, kladoforlar təbiətdə ən geniş yayılmış yosunlardan biridir. Onlar həm şirin, həm də ən duzlu sularda yaşayır.***

Suda qida elementlərinin (azot və fosfor) konsentrasiyası kəskin artanda savparı yaşıl yosunlar onları udur və tez böyüməyə başlayaraq böyük biokütlə yaradır. Bu yosunların mühüm hissəsini dalğalar sahilə atır. Həmin ərazilərdə müxtəlif, o cümlədən xəstəliktörədən mikroorqanizmlər yaranır. Suda isə oksigenin miqdarı azalır, hidrogen-sulfidin və digər zəhərli maddələrin miqdarı artır. Oksigenin konsentrasiyasına həssas olan canlılar, məsələn, balıqlar məhv olur. Əgər bütün bunlar şirin sularda baş verirsə, onu içmək olmaz.

Adətən yosun qalıqları adi təhlükəli zibil hesab olunur. Lakin Rusiya Elmlər Akademiyası A.Kovalevski adına Cənub Dənizlərinin Biologiyası İnstitutunun əməkdaşları yosun qalıqlarından fayda əldə etməyin mümkünlüyü qənaətinə gəliblər. Onlar "Reviews on Aquaculture" nəşrində dərc etdirdikləri yazıda həm özlərinin əldə etdikləri, həm də yüzlərlə digər elmi işlər əsasında kladofor yosunlarının kimyəvi quruluşunu təhlil ediblər.

Bu barədə məlumat "Nauka i jizn" saytında yer alıb.

Yosunlar da digər bitkilər kimi yağ turşuları, asetogenlər, fenol birləşmələri, polisaxaridlər, terpenlər, alkaloidlər və digər müxtəlif piqmentlər sintez edir. Onlarda karbohidratların miqdarı yüksəkdir. Yağ turşuları müxtəlif hüceyrədaxili proseslərin tənzimləyicisi, fenol birləşmələri isə antioksidant və antikanserogen kimi məşhurdur. Başlıcası isə odur ki, bütün bunlar yosunlarda lap çoxdur.

Alimlər müəyyən ediblər ki, kladoforda üzvi maddələrin ümumi miqdarı 61 faizə çatır. Ona görə də yosunlardan tibbi və kosmetik preparatların hazırlanmasında istifadə etmək olar. Bundan başqa, ev heyvanlarının, balıq və krevetlərin qidalarına əlavə edilə, eləcə də qida sənayesində əlavə kimi istifadə edilə bilər.

# Buzlaq çoxsaylı aysberqlərə parçalanıb

***Qrenlandiyadakı ən iri arktik şelf buzlağından sahəsi təqribən 110 kvadrat kilometrə bərabər olan böyük bir buz massivi ayrılıb. Peykdən çəkilmiş fotoşəkillərdə aşkar görünür ki, 79N buzlağı hissələrə bölünüb.***

BBC agentliyi xəbər verir ki, bu fakt Qrenlandiyada iqlim dəyişmələrinin sürətlənməsinə daha bir sübutdur.

Almaniyanın Erlangen-Nürnberq Universitetinin əməkdaşı Cenni Turton BBC agentliyinə müsahibəsində deyib: "1980-ci ildən bəri bu regionda havanın temperaturu 3 dərəcə artıb. 2019-cu və 2020-ci illərdə isə rekord dərəcədə yüksək temperatur qeydə alınıb".

Uzunluğu təqribən 80 kilometr, eni isə 20 kilometr olan 79N buzlağı Qrenlandiyanın şimal-şərq buz axınının üzən qabaq hissəsidir. Buzlaq bu ərazidə qurudan okeana düşür və üzməyə başlayır. Buzlağın qabaq hissəsində o, iki yerə bölünür. Bir hissə şimala doğru üzür. Hazırda əsas hissədən ayrılan bu parçadır.



Hələ 2019-cu ildə buzlaqdan dərin çatlar əmələ gəlmişdi. 2020-ci ildə yayın çox isti keçməsi nəticəsində vəziyyət daha da gərginləşib. Buzlaq çoxsaylı aysberqlərə parçalanıb.

Peykdən çəkilən fotoşəkillərdə aşkar görünür ki, regionda temperatur yüksəlib. Su buz massivlərinə ziyan vurur. Nəticədə buzlağın şelf hissəsi zəifləyir.

Okeanaqraflar dəniz suyunun temperaturunun artmasını da sənədli şəkildə qeydə alıblar. Bu səbəbdən buzlaq həm də aşağı hissədən əriyir.

# Xilasedicilər sahilə atılan 180 delfini dərin sulara çıxarmağa çalışırlar

***Avstraliyalı xilasedicilər Tasmania yaxınlığında sahilə atılan 180 qara grind-delfini dərin sulara çıxarmağa çalışırlar. BBC kanalı xəbər verir ki, dayaz sularda qalan 270 heyvandan ən azı 90-ı həlak olub.***

Çərşənbə axşamı, xilasedicilər əksəriyyəti dərin suya yaxın olan 25 delfini xilas edə biliblər. Alimlərin sözlərinə görə, xilasetmə əməliyyatı bir neçə gün davam edə bilər.

Grind-delfinləri, Avstraliyanın Tasmania adasının şərq sahili yaxınlığında bazar ertəsi günü aşkar edilib. Belə hallar bu bölgədə qeyri-adi hal deyil, 2009-cu ildə də təxminən 200 heyvan dayaz suda olduğu zaman sahilə atılıb.

Tasmaniya xilasediciləri adanın qərbindəki Makkuori Heds körfəzində üç qrup delfin aşkar ediblər. Bu, ucqar bir ərazidir, buraya həm quru, həm də dəniz yolu ilə çatmaq çox çətindir.

Təxminən 200 grind qayıq sahiblərinin istifadə etdiyi dənizə enən qumlu ərazidə aşkar edilib. 30 heyvan bir neçə yüz metr məsafədə, daha 30 heyvan isə sahildə olub

Çərşənbə axşamı səhəri, təxminən 40 nəfərlik xüsusi təlim keçmiş xilasetmə qrupu delfinləri dərinliyə aparmağa başlayıb.

"Adətən biz sahildə olan heyvanlarla məşğul oluruq. Bu dəfə hər şey başqa cürdür. Burada delfinlər yarıyadək sudadılar, buna görə də onları xilas etmək üçün bir az güc tətbiq etmək lazımdır", - deyə əməliyyat iştirakçılarından biri, bioloq Kris Karlion söyləyib.

Grindlər daha dərin suya düşdükdən sonra xilasedicilər onları sahildən uzaqlaşdırmağa çalışacaqlar. Karlionun sözlərinə görə, sahilə çarpan güclü dalğalara görə bunu etmək o qədər də asan olmayacaq. Delfinləri xilas etmək üçün bəlkə də qayıqlardan istifadə edildi.

Bioloq qeyd edib ki, bəzi heyvanlar çox böyük və ya narahat bir vəziyyətdə olduğu üçün, çox güman ki, onları xilas etmək mümkün olmayacaq. Grind – delfinlərin uzunluğu yeddi metrə çata bilər, çəkisi üç tona qədərdir. "Əvvəlcə xilasolma şansı daha çox olan heyvanlarla məşğul olacağıq", - deyə Carlion izah edib. O əlavə edib ki, əvvəlki xilasetmə əməliyyatlarının təcrübəsi göstərir ki, balinaya bənzərlər quruda üç-dörd gün sağ qala bilirlər. Bundan başqa, hazırkı vəziyyətdə bir çox delfin qismən sudadır, buna görə onların yaşamaq şansları daha da yüksəkdir.

Hökumət nümayəndələri əməliyyatda kifayət qədər xilasedicinin iştirak etdiyini bildirərək, yerli sakinləri hadisə yerinə yaxınlaşmamağa çağırıb.

DƏNİZ

25 sentyabr 2020-ci il № 41-44 (9419)

## "Qalatasaray" klubu Azərbaycana təşəkkür edib

***UEFA Avropa Liqasının II təsnifat mərhələsində Bakının "Neftçi" klubunu mübarizədən kənarlaşdıran Türkiyənin "Qalatasaray" komandası Azərbaycana təşəkkür edib.***

İstanbul təmsilçisinin "Facebook"dakı səhifəsində bununla bağlı "Hər şey üçün təşəkkürlər. Yenidən görüşərik, AzərbayCAN!" sözləri yerləşdirilib.

Qeyd edək ki, sentyabrın 16-da Bakı Olimpiya Stadionunda keçirilən qarşılaşma qonaqların 3:1 hesablı qələbəsi ilə başa çatıb.

## "Vüqar Həşimovun dostları" komandası Ermənistan kollektivini məğlub edərək klublararası turnirin qalibi olub

***Avqustun 30-da start götürmüş klublararası turnirdə "Vüqar Həşimovun dostları" komandası uğurla çıxış edib.***

Heyətində Qədir Huseynov, Rauf Məmmədov, Vüqar Rəsulov, Zaur Məmmədov, Nicat Abasov, Misrəddin İsgəndərovun yer aldığı komandamız dörddəbir finalda Serbiya, yarımfinalda Amerika şahmatçılarını məğlub edib. Finalda Ermənistan komandasına qalib gələn "Vüqar Həşimovun dostları" yarışda birinci yeri tutub.

Turnir "Lichess.org" platforması vasitəsilə keçirilib.

## "Səbail" heyətini yeni futbolçularla gücləndirir



***Klubun rəsmi saytının verdiyi məlumata görə, paytaxt təmsilçisi "Sabah"ın müdafiəçisi Arsen Ağcabəyovu 2020-2021-ci il mövsümünün sonunadək icarəyə götürüb.***

Qeyd edək ki, Arsen Ağcabəyov həm də Azərbaycanın U-21 yığmasının üzvüdür.

Dənizçilərin komandası Amil Yunanovu da heyətinə qatıb. Hücumçu ilə mövsümün sonunadək müqavilə imzalanıb.

Qeyd edək ki, Amil Yunanov son olaraq "Sumqayıt"ın formasını geyinib.

## Üçüncü Avropa Oyunlarının ilkin proqramına 24 idman növü daxil edilib

***Polşanın Krakov şəhərində 2023-cü ildə keçiriləcək Avropa Oyunlarının ilkin proqramına 24 idman növü daxil edilib.***

THE EUROPEAN GAMES

TASS informasiya agentliyi xəbər verir ki, oyunlarda kamandan oxatma, sinxron üzgüçülük, badminton, basketbol - 3x3, çimərlik həndbolu, breykdans, kanoe (kayak və kanoe, kanoe slalom), velosiped idmanı (BMX, şose), qılıncoynatma, gimnastika, cüdo, karate, müasir beşnövçülük, dağ qaçışı, reqbi-7, atıcılıq, trampilindən tullanma (yay), idman dırmanması, stolüstü tennis, triatlon, voleybol, çimərlik voleybolu, ağırlıqqaldırma idman növləri üzrə yarışlar keçiriləcək.

Qeyd edək ki, birinci Avropa Oyunları 2015-ci ildə Bakıda, ikinci Avropa Oyunları ötən il Belarusun paytaxtı Minskdə təşkil edilib. Üçüncü Avropa Oyunlarının isə 2023-cü il iyunun 9-dan 24-dək keçirilməsi nəzərdə tutulub.

## Koronavirus infeksiyasına yoluxmanın simptomlarını müəyyənləşdirən maska hazırlanıb

***Sinqapur alimləri koronavirus infeksiyasına yoluxmanın simptomlarını müəyyənləşdirə bilən maska hazırlayıblar.***

Bu barədə "The Straits Times" agentliyi xəbər verir.

Maskada nəbz, bədənin istiliyi, təzyiqi, nəfəsalma vəziyyəti və digər bu kimi əlamətlər barədə məlumat toplayan sensorlar quraşdırılıb. Həkimlərin xəstənin vəziyyətini və onda baş verən dəyişiklikləri qiymətləndirə bilməsi üçün sensorlar hər yarım saatdan bir mobil



telefondakı xüsusi əlavə vasitə ilə xəstənin səhhəti barədə məlumat ötürürlər. Sensorların özlərinin qoruyucu avadanlıqlarla birlikdə yuyula biləcəyi və hətta bir maskadan digərinə keçirilə biləcəyi qeyd olunur.

Bu texnologiyanı işləyib hazırlayanlar söyləyiblər ki, fərdi qoruyucu vasitələrdəki xüsusi materialla örtülmüş çiplər alınan məlumatlara qarşı həssas olmaqla yanaşı, həm də rütubətə davamlıdırlar. Hazırda maskanın qiyməti 36 dollardan bir qədər çoxdur, lakin kütləvi istehsal zamanı onun qiyməti 14,6 dollara qədər düşə bilər.

Bundan əvvəl Amerika alimləri sübut ediblər ki, kombinə edilmiş materialdan olan cərrahi maskalar və aksesuarlar koronavirusa qarşı ən yaxşı müdafiə vasitələridir. N95 tipli xüsusi cərrahi maskalar və kombinə edilmiş materiallardan hazırlanmış qoruyucu aksesuarlar — məsələn, pambıq və sintetik maskalar yüksək effektivliyi ilə fərqlənirlər. Lakin N95 standartından olan maskaların yüksək qoruyuculuq dərəcəsinə malik olmalarına baxmayaraq, tədqiqatçılar həmin maskalarda quraşdırılmış klapana görə onların təhlükəsizliyinə şübhə ilə yanaşırlar.

## Ən çox qazanan futbolçular



***"Forbes" jurnalı 2020-ci ilin ən çox qazanan futbolçularının siyahısını dərc edib.***

Siyahının birinci pilləsində İspaniyanın "Barselona" komandasının kapitanı Lionel Messi (126 milyon dollar) qərarlaşıb. "Yuventus"un hücumçusu Kriştiano Ronaldo ikinci (117 milyon), "Paris Sen-Jermen"in braziliyalı futbolçusu Neymar üçüncü (96 milyon) olub.

Siyahının dördüncü və beşinci pillələrində müvafiq olaraq Kilian Mbappe ("Paris Sen-Jermen") və Məhəmməd Salah ("Liverpul") yer alıblar.

Qeyd edək ki, L.Messi ötən mövsümdə "Barselona"nın heyətində keçirdiyi 44 oyunda 31 qol vurub.

## Yaş artdıqca qidalanmaya daha ciddi fikir verilməlidir

***Düzgün təşkil olunan qidalanma sağlam həyat tərzinin tərkib hissəsidir. Hər yaşda olduğu kimi, yaşlı insanlarda da doğru və balanslı qidalanma sağlamlığın qorunma və inkişafı üçün çox vacibdir. Yaşı 60-dan yuxarı olanlar gündə dörd-beş dəfə qida qəbul etməlidir, çünki az qidalanma orqanizmdə enerjini azaldır, bu da qida rasionunda balans pozğunluğu yaradaraq ciddi sağlamlıq problemlərinə səbəb olur.***

Həkim-endokrinoloq Gülay Məmmədova deyib: "Yaş artdıqca qidalanmaya ona görə fikir verməliyik ki, yaşla əlaqədar olaraq fizioloji olaraq zəifləmənin müddəti ilə maddələr mübadiləsinin zəifləməsi bir az uzansın. Müəyyən yaşdan sonra qidalanmaya ona görə fikir vermək lazımdır ki, yaş artdıqca oturaq həyat tərzi güclənir, əvvəlki aktivlik itir, hərəkətlər azalır, damar və ayaq problemləri ilə əlaqədar həm immun sistemi, həm də xəstəliklərlə mübarizə baxımından düzgün qidalanmanı gözləmək lazım gəlir".

Tədqiqatlar sübut edir ki, xüsusən də yaşlılarda yanlış qidalanma demək olar ki, bir çox xəstəliklərin ciddi şəkildə güclənməsi ilə nəticələnir.

Həkim-diyetoloq Ləman Süleymanova bildirib: "Elmi tədqiqatlar zamanı belə bir qənaətə gəliblər ki, ahıl yaşda olanlar gündəlik rasionlarında sağlam qidaları qəbul etmək yolu ilə sağlam həyat, ağrı-acısız və uzun ömür sürə bilərlər. Yaşlılar pəhriz saxlayarkən çox ciddi nəzarət altında olmalıdırlar, çünki onlarda enerji ehtiyatlarının azalması immun sisteminin zəifləməsinə və bir sıra xəstəliklərin baş qaldırmasına səbəb olur".

Yaş dövrlərində heyvan və bitki məhsulları arasındakı nisbət dəyişir. Yaşlıların qida rasionunda daha çox meyvə-tərəvəzlərə üstünlük verilməlidir. Həmin dövrdə qidalanma həyat keyfiyyətini artırmaq üçün vacibdir. Onların pəhrizində enerjiyə olan tələbat qidalanma vərdişləri, xəstəlikləri, həyat tərzi, fiziki fəaliyyət səviyyəsi və istifadə etdikləri dərmanlar nəzərə alınmalıdır.

Həkim-diyetoloqun dediyinə görə, 60 yaşdan yuxarı olanlar yavaş-yavaş rasionda şəkər, duz və heyvani yağları azaltmalıdırlar. Onların gündəlik qida rasionlarında bitki mənşəli yağlar, dəmir, kalsium, kalium, maqnezium və sinklə zəngin olan qidalar əsas yer tutmalıdır.

Sağlamlığın qorunması hər yaş dövründə vacibdir və bunun üçün düzgün qidalanma, fiziki hərəkət və sağlam həyat tərzi seçilməlidir.

## Düzgün qidalanmamaq depressiya, narahatlıq, yuxusuzluq və digər problemlərə səbəb olur

***Pəhrizin orqanizm üçün faydası çoxdur. Pəhriz saxlayanlardan bəziləri həkim məsləhəti, bəziləri isə öz bildiyi kimi qidalanmağa üstünlük verir.***

Həkim-diyetoloq Ləman Süleymanova: "Təəssüflər olsun ki, pəhriz dedikdə bunun yalnız arıqlamaq, çəki atmaq üçün olduğunu düşünürlər. Diyetologiya yalnız arıqlamaqdan ibarət deyil. Burada hər bir xəstəliyə uyğun və hər kəsə fərdi qaydada pəhriz növləri nəzərdə tutulur. Xəstəliklər müəyyən edildikdən sonra ona uyğun pəhriz tətbiq olunmalıdır: Ürək xəstəliyi olanların, mədə-bağırsaq xəstəliyin olanların bir-birindən tam fərqli pəhrizləri var. Məsələn, böyrək xəstələrinə proteini az olan pəhrizlər məsləhət görülür. Ona görə bu fərdilik məsələsinə mütləq əməl olunmalıdır".

Onun dediyinə görə, həddən artıq pəhriz saxlamaq müəyyən psixoloji problemlərə səbəb olur: "Düzgün qidalanmamaq, pəhriz qidalarından rejimsiz istifadə etmək depressiya, narahatlıq, yuxusuzluq və digər problemlərə səbəb olur. Belə halda onlar sosial cəhətdən də özlərində məhdudiyyətlər qoyurlar".

Pəhriz saxlayarkən qida rasionunda karbohidratlar, yağlar və zülallar balanslaşdırılmış qaydada olmalıdır.

## Kompüter qarşısında çox oturmaq gözün nəmliyini qurudur

***Göz ən mühüm və eyni zamanda ən incə duyğu orqanlarından biridir və insan həyatında çox mühüm rol oynayır. Göz vasitəsilə ətrafda cərəyan edən hadisələri görür, rənglərin çalarlarını seçir, həyatın gözəlliklərini duyuruq. Ona görə də onların gigiyenasına düzgün əməl edilməsi vacib şərtlərdən biridir.***



Bakı Baş Səhiyyə İdarəsinin baş oftalmoloqu Sevda Bəşirova deyib ki, ətraf mühitdən informasiyanın 90 faizi göz vasitəsilə alınır. Gözlərinin hər birinin çəkisi 10-13 qram arasında olsa da, onun funksiyaları kifayət qədər çoxdur. Göz elə orqandır ki, onun daim qidalanmağa ehtiyacı var. İlk növbədə gün ərzində 1 saat təmiz havada gəzmək buynuz qişa, beyin və göz dibi üçün çox faydalıdır.

Kompüter qarşısında uzun müddət oturanda göz yorğunluğu daha çox müşahidə olunur. Bu zaman şüalar gözün nəmliyini qurudur və göynəmələr əmələ gəlir. Bunun üçün hər 45 dəqiqədən bir kompüterdən uzaqlaşıb 15 dəqiqə hava almaq lazımdır. Belə şəraitdə çalışanlar tez-tez apteklərdə satılan təbii göz yaşı damcılarından istifadə etməlidirlər.

"Ən ideal göz masajı hansısa əşyanı 30 santimetrlikdə tutub mümkün olduğu qədər yaxın və uzağa baxmaq lazımdır. Bunu etmək gözdaxili əzələləri yığır və boşaldır, fokusu yaxşılaşdırır. Normal halda bir göz dəqiqədə 16-18 dəfə qırpılmalıdır. Kompüter arxasında olanda o qədər ona aludə oluruq ki, gözü qırpmağı unuduruq və bu, dəqiqədə, məsələn 10 dəfəyə düşürsə, bu proses saatlarla, günlərlə davam edəndə quru göz sindromunun yaranmasına səbəb olur", - deyə həkim-oftalmoloq bildirib.

## Sağlam körpə səbəbsiz ağlamır

***Uşaqlar müxtəlif səbəblərdən ağlaya bilərlər. Onları sakitləşdirmək üçün ilk növbədə bunun nədən irəli gəldiyini bilmək lazımdır. Əvvəllər belə hesab olunurdu ki, uzunmüddətli ağlama uşağın səhhəti üçün ziyanlı deyil. Müasir pediatriyada bu fikir doğru hesab edilmir. Uzunmüddətli ağlama uşağın sinir sisteminə mənfi təsir edir, onun normal inkişafına mane olur, hətta gələcəkdə xasiyyətin formalaşmasına təsir göstərir. Tədqiqatçılar hesab edirlər ki, əgər körpənin ağlamağına daimi olaraq reaksiya verilmirsə, daha sonra belə körpələrdən laqeyd, başqalarının hisslərinə əhəmiyyət verməyən, həyata və ətrafdakılara çətinliklə uyğunlaşan nəsil formalaşır.***

K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun həkim-pediatrı, tibb üzrə fəlsəfə doktoru, dosent Sevinc Nəsirova bu barədə AZƏRTAC-a məlumat verərək deyib: Körpənin uzunmüddətli ağlamağı onun tək sinir sisteminə deyil, tənəffüs sisteminə də mənfi təsir edir. Uzunmüddətli ağlama zamanı ağciyərlərin ventilyasiya prosesi, yəni oksigenlə təchiz olunması pozulur. Sağlam körpə səbəbsiz ağlamır. Ağlamağın səbəbi müxtəlif ola bilər: körpə ac ola bilər; köp onu narahat edər, bezi nəm və çirkli ola bilər, dərisində problemlər yaranması ona diskomfort verər, yaxud körpə soyuq və ya istidən əziyyət çəkə bilər, lakin yuxuya gedə bilmədiyinə görə narahat olar. Bundan əlavə ananın əhval-ruhiyyəsi, gərgin və əsəbi olması və s. uşağa mənfi təsir edər və uşaq bu səbəbdən özünü narahat hiss edərək ağlaya bilər".

Onun dediyinə görə südəmər uşağa kömək etmək üçün onun niyə ağladığını bilmək, həmçinin belə halda ananın nə etməli olduğunu başa salmaq lazımdır: "Körpə ağladıqda ana buna dərhal reaksiya verməli, uşağı qucağına almalı, bezini dəyişməli, dərinin vəziyyətinə fikir verməlidir. Uşağı köp narahat edirsə, onu masaj etmək, körpəni qarnı üzərinə qoymaq lazımdır. Ağlama səbəbindən asılı olmayaraq südvermə körpəni sakitləşmək və yuxuya getmək üçün ən yaxşı vasitədir. Bəzi uşaqları çimizdirmək onları çox yaxşı sakitləşdirir. Əgər göstərilən bütün cəhdlərə baxmayaraq, körpə ağlamağa davam edirsə, pediatrla məsləhətləşmək lazımdır".

"Uşağın nədən ağlamasını və ona necə yardım etmək lazım gəldiyini bilmədən ana tez onu qucağına götürür və yırğalayır. Uşaq anasının qucağında sakitləşir, lakin onun ağlamasına səbəbi aradan qaldırılmadığı üçün çarpayısına qoyan kimi təzədən ağlamağa başlayır. Anasının onu daim qucaqda yırğalaması uşağın xoşuna gəlir. Lakin anası onu qucağa az götürdükdə və pal-paltarını, əşkilərini dəyişib təzədən yerinə qoyduqda da özünü yaxşı hiss edir, burada o gününü yaxşı keçirir. Bundan başqa uşaq üçün çarpayı daha rahatdır, çünki o burada sərbəst surətdə əl-qolunu oynada bilir. Aydındır ki, uşaq öz çarpayısında olanda ana üçün də rahatdır. Uşaq ağlayanda çox hirslənibsə, əvvəlcə ağlamağın səbəbini aradan qaldırmaq, onu mehriban səslə sakitləşdirmək, yaxud qucağa götürmək, sakitləşdikdə isə təzədən yerinə qoymaq lazımdır. Birinci gündən uşaqla bu cür rəftar edilsə, sonralar o özünü sakit aparacaqdır",- deyə pediatr fikrini yekunlaşdırıb.

## Xərçəng riskini əhəmiyyətli dərəcədə azaldan məhsullar

***Xərçəng xəstəliyinin inkişafından tamamilə müdafiə edən məhsulların mövcud olmamasına baxmayaraq, bəziləri bədxassəli şişlərin əmələ gəlməsindən orqanizmin müdafiəsini gücləndirir. "MedikForum" portalı bildirir ki, bu məhsulların istifadə edilməsi immun sisteminin fəaliyyətinə müsbət təsir edir, bu da öz növbəsində xərçəng riskini ən azı 20 faiz aşağı salır.***

Xərçəng əleyhinə maneəni möhkəmləndirmək məqsədilə həkimlər immun sisteminin müdafiə xüsusiyyətlərini səmərəli stimullaşdıran sarımsaqdan istifadə edilməsini tövsiyə edirlər. Bu cür səmərə kükürd birləşmələri ilə təmin edilir. Mövcud olan tədqiqatların göstəriciləri belə nəticəyə gəlməyə əsas verir ki, sarımsağın istifadə edilməsi mədə xərçənginin qarşısının alınması üsullarından biridir – bu vərdiş sayəsində xəstəlik ehtimalı 15 faiz azalır.

Öz növbəsində, kolorektal (bağırsaq) xərçəngi, prostat şişi riski Braziliya qozunun pəhrizə daxil edilməsinə imkan verir. Bu məhsul – ən zəngin selenyum mənbəyidir: bu mineral şiş şəklində mutasiya etməyə qadir olan zədələnmiş hüceyrələrin məhvinə yardım edir. Kornell və Arizona universitetlərinin alimləri tərəfindən əldə edilmiş məlumatlar qozun sayəsində prostat xərçəngi riski 63 faiz, bağırsaq xərçəngi riskinin isə 58 faiz azaldıla biləcəyinə işarə edirlər. Bunu etmək üçün gündə iki dənə qoz yemək lazımdır.

Xərçəng xəstəlikləri ilə ən yaxşı mübarizlərdən biri brokolidir. Tərəvəz spesifik bir birləşmə - bir çox şiş növü ilə əlaqəli WWP1 genini basdıran I3C molekulunu ehtiva edir, bu Beth-İzraiel Tibb Mərkəzinin alimləri tərəfindən müəyyən edilib. Məhsulun digər komponenti - bağırsaq və prostat şişlərinin hüceyrələrinin inkişafına maneə törətmə xüsusiyyətinə malik olan sulforafan maddəsidir.

Bundan başqa, pəhrizdə çox vaxt almanın mövcudluğu kolorektal xərçəngin inkişafının səmərəli şəkildə qarşısını alır. Buna, onların pəhriz lifləri, eləcə də, xərçəng hüceyrələrinin qatilləri olan proksyanidinlər antioksidan maddələri köməklik edir.

Çayın istifadə edilməsi də xərçəng riskini aşağı salır. Hesablanıb ki, gündəlik iki fincan yumurtalıq xərçənginə tutulma şansını 32 faiz azalda bilər. Buna çay yarpaqlarının tərkibində bol şəkildə olan antioksidantlar və flavonoidlər səbəb olur.

Yağlı balıq yemək şiş xəstəliklərinin qarşısının alınması üçün çox faydalıdır. "Domaşni Oçag" nəşri həftədə dörd porsiyanın leykemiya, miyelom və linfoma ehtimalını 30 faiz azalda biləcəyini yazır.

Öz növbəsində, müntəzəm olaraq yeyilən sitrus meyvələri qırtlaq, mədə və ağız boşluğu xərçəngi riskini əhəmiyyətli dərəcədə azaldır.

### ALLAH RƏHMƏT ELƏSİN

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi "Bibiheybət" Gəmi Təmiri Zavodunun Mühasibat uçotu və hesabat şöbəsinin rəisi - baş mühasib Mahuzər Bayramovaya

**atasının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi ASCO-nun "Ağdam" gəmisi kapitanının növbə köməkçisi

**Ayaz Vəliyevin**

vaxtsız vəfatından kədərləndiklərini bildirir, ailəsinə və qohumlarına dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152

TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
12-36 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar
Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 2270